# Oruc dövrü

Adi Günlərin Oxunuşları



Kül çərşənbəsi – ABC (Küllərin Təqdis Edilməsi) .......... 3
KÜL ÇƏRŞƏNBƏSİNDƏN SONRA Cümə axşamı - 4cü gün .......... 5
KÜL ÇƏRŞƏNBƏSİNDƏN SONRA Cümə - 5ci gün .......... 6
KÜL ÇƏRŞƏNBƏSİNDƏN SONRA Şənbə - 6cı gün .......... 8

ORUC | 1ci həftə | Bazar ertəsi - 1ci gün .......... 9
ORUC | 1ci həftə | Çərşənbə axşamı - 2ci gün .......... 11
ORUC | 1ci həftə | Çərşənbə - 3cü gün .......... 12
ORUC | 1ci həftə | Cümə axşamı - 4cü gün .......... 14
ORUC | 1ci həftə | Cümə - 5ci gün .......... 15
ORUC | 1ci həftə | Şənbə - 6cı gün .......... 17

ORUC | 2ci həftə | Bazar ertəsi - 1ci gün .......... 18
ORUC | 2ci həftə | Çərşənbə axşamı 2ci gün .......... 19
ORUC | 2ci həftə | Çərşənbə - 3cü gün .......... 21
ORUC | 2ci həftə | Cümə axşamı 4cü gün .......... 22
ORUC | 2ci həftə | Cümə - 5ci gün .......... 24
ORUC | 2ci həftə | Şənbə - 6cı gün .......... 26

ORUC | 3cü həftə | Bazar ertəsi - 1ci gün .......... 28
ORUC | 3cü həftə | Çərşənbə axşamı 2ci gün .......... 30
ORUC | 3cü həftə | Çərşənbə - 3cü gün .......... 32
ORUC | 3cü həftə | Cümə axşamı 3cü gün .......... 33
ORUC | 3cü həftə | Cümə - 5ci gün .......... 35
ORUC | 3cü həftə | Şənbə - 6cı gün .......... 36

ORUC | 4cü həftə | Bazar ertəsi - 1ci gün .......... 38
ORUC | 4cü həftə | Çərşənbə axşamı 2ci gün .......... 40
ORUC | 4cü həftə | Çərşənbə - 3cü gün .......... 42
ORUC | 4cü həftə | Cümə axşamı 4ci gün .......... 44
ORUC | 4cü həftə | Cümə - 5ci gün .......... 46
ORUC | 4cü həftə | Şənbə - 6cı gün .......... 47

ORUC | 5ci həftə | Bazar ertəsi - 1ci gün .......... 50
ORUC | 5ci həftə | Çərşənbə axşamı 2ci gün .......... 52
ORUC | 5ci həftə | Çərşənbə - 3ci gün .......... 54
ORUC | 5ci həftə | Cümə axşamı 4cü gün .......... 56
ORUC | 5ci həftə | Cümə - 5ci gün .......... 57
ORUC | 5ci həftə | Şənbə - 6cı gün .......... 59

# Kül çərşənbəsi – ABC (Küllərin Təqdis Edilməsi)

**Peyğəmbər Yoelin kitabından sözlər** *Yoel 2, 12-18*

Rəbb belə bəyan edir:
«İndi isə orucla, ağlamaqla, yas tutmaqla bütün qəlbinizlə Mənə dönün.
Paltarlarınızı deyil, ürəyinizi yırtın, Allahınız Rəbbə tərəf qayıdın».
Çünki O, lütfkar və rəhmlidir, hədsiz səbirlidir, bol məhəbbətlidir, bəla göndərməz, rəhm edər. Kim bilir, bəlkə rəhm edib dönər? Sonra Allahınız Rəbbə Taxıl
və maye təqdimlərini verəsiniz deyə sizə bərəkət verər.
Sionda şeypur çalın, oruc üçün vaxt təyin edin, təntənəli toplantı çağırın.
Xalqı bir yerə yığın, camaatı təqdis edin, ağsaqqalları yığın, uşaqları və südəmər çağaları toplayın. Bəy öz otağından, gəlin də öz gərdəyindən çıxsın.
Rəbbə xidmət edən kahinlər məbədin eyvanı ilə qurbangah arasında ağlayıb desin:
«Ya Rəbb, xalqına qıyma, Öz irsini rüsvay olmağa qoyma!
Qoyma onlar millətlərin dilinə düşsün.
Axı nə üçün xalqlar arasında belə deyilsin: “Bəs hanı onların Allahı?”»
O zaman Rəbb Öz torpağına qıymayacaq, Öz xalqına rəhm edəcək.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 51, 1-2. 3-4. 10-11. 12-13. 14+17**

**N: Ey Allah, biz günahkarlara rəhm et**

Məhəbbətinə görə, ey Allah, mənə rəhm et,
bol mərhəmətinə görə qanunsuzluqlarımı sil.
Təqsirimi tamamilə yu, günahımdan məni təmizlə.

Çünki qanunsuzluqlarımı bilirəm, günahım daim gözümün qarşısındadır.
Sənə, yalnız Sənə qarşı günah işlətmişəm, gözündə pis sayılanı etmişəm.

Ey Allah, məndə təmiz ürək yarat, daxilimə yenidən sədaqət ruhunu ver.
Məni Öz hüzurundan atma, Müqəddəs Ruhunu məndən götürmə.

Xilasının sevincini mənə qaytar, itaətkarlıq ruhu verib mənə dayaq ol.
Ey Xudavənd, Sən dilimi aç, ağzımla Sənə olan həmdlərimi bəyan edim.

**Müqəddəs Paulun Korinflilərə 2-ci məktubundan sözlər** *2 Kor 5, 20 – 6, 2*

Beləliklə, biz Məsihin nümayəndələriyik, sanki Allah bizim vasitəmizlə rica edir. Məsihin adı ilə yalvarırıq ki, Allahla barışın. Günahla əlaqəsi olmayan Məsihi Allah bizim uğrumuzda günah qurbanı verdi ki, Onda biz Allahın salehliyinə nail olaq. Buna görə Allahla birgə işləyən bizlər rica edirik ki,

Onun lütfünü boş yerə qəbul etməyəsiniz. Çünki O deyir:
«Münasib vaxtda səni eşitdim, Xilas günü sənə kömək etdim».
Budur, indi münasib vaxt, budur, indi xilas günü.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**
Rəbbim, sözlərin həqiqətdir və əmrlərin qurtuluşumuza yoldur.
İsa Məsih belə deyir: "Tövbə edin, çünki Allahın hökmdarlığı yaxındır".
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Mt 6, 1-6. 16-18*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Ehtiyatlı olun, özünüzü insanlara göstərmək üçün yaxşılıq etməyin. Yoxsa göylərdə olan Atanızdan mükafat almazsınız. Ona görə də sədəqə verdiyin zaman öz önündə car çəkmə. Çünki ikiüzlülər insanların onları tərifləməsi üçün sinaqoqlarda və küçələrdə belə edirlər. Doğrusunu sizə deyirəm ki, onlar mükafatlarını aldılar. Amma sən sədəqə verdiyin zaman sol əlin sağ əlinin nə etdiyini bilməsin. Belə ki verdiyin sədəqə gizli qalsın. Gizlidə olanı görən Atan səni mükafatlandıracaq. Dua etdiyiniz zaman ikiüzlülər kimi olmayın. Çünki beləələri insanlar onları görsün deyə sinaqoqlarda və küçə tinlərində durub dua etməyi sevirlər. Doğrusunu sizə deyirəm ki, onlar mükafatlarını aldılar. Amma sən dua etdiyin zaman öz otağına girib qapını ört. Gizlində olan Atana dua et. Gizlində etdiyin duanı görən Atan səni mükafatlandıracaq. Oruc tutduğunuz zaman ikiüzlülər kimi qaşqabaqlı gəzməyin. Onlar oruc tutduqlarını insanlara göstərmək üçün özlərini qəmgin tuturlar. Doğrusunu sizə deyirəm ki, onlar mükafatlarını aldılar. Amma sən oruc tutduğun zaman başına yağ sürt və üzünü yu. Belə ki insanlara deyil, gizlində olan Atana oruclu görünəsən. Gizlində olanı görən Atan səni mükafatlandıracaq.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# KÜL ÇƏRŞƏNBƏSİNDƏN SONRA

## Cümə axşamı 4cü gün

**Qanunun təkrarı kitabından sözlər** *Qanun 30, 15-20*

Musa xalqına dedi: Bax bu gün sizin qarşınızda həyatla xoşbəxtliyi, ölümlə bədbəxtliyi qoyuram. Bu gün sizə Allahınız Rəbbi sevməyi, Onun qoyduğu yollarla getməyi, əmrlərinə, qaydalarına, hökmlərinə riayət etməyi əmr edirəm. Belə etsəniz, yaşayıb artacaqsınız və mülk olaraq almaq üçün gedəcəyiniz torpaqda Allahınız Rəbb tərəfindən xeyir-dua alacaqsınız. Əgər bu yoldan dönsəniz, qulaq asmasanız, azaraq, yad allahlara səcdə qılaraq onlara qulluq etsəniz, bu gün sizə bildirirəm ki, mütləq məhv olacaqsınız. İordan çayını keçib mülk olaraq almaq üçün gedəcəyiniz ölkədə uzun ömür sürməyəcəksiniz. Qarşınızda həyatla ölümü, xeyir-dua ilə lənəti qoyduğum üçün bu gün göyü və yeri sizə şahid tuturam. Həyatı seçin ki, siz və övladlarınız yaşaya biləsiniz. Allahınız Rəbbi sevin, sözü qulağınızda qalsın və Ona bağlanın. Çünki sizin həyatınız Odur. Belə etsəniz, Rəbbin ata-babalarınız İbrahimə, İshaqa və Yaquba verməyi vəd etdiyi torpaqda sizi uzun ömürlü edəcək».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 1, 1-2.3.4.6**

**N: Rəbbə ümid edənlər nə bəxtiyardır!**

Pislərin məsləhəti ilə getməyən, günahkarların yolunda dayanmayan,
rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır!
O ancaq Rəbbin Qanunundan zövq alar, gecə-gündüz bu təlimatı dərin düşünər.

Axar sular kənarında əkilən ağac kimi, barını mövsümündə verər,
yarpağı solmaz, etdiyi hər işdə uğur qazanar.

Pis adamlarsa belə deyil, onlar yelin sovurduğu saman çöpünə bənzəyər.
Çünki Rəbb salehlərin yolunu bilər, pislərin yolu isə məhv olar.

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Mt 4,17*

O vaxtdan İsa vəz edib belə deməyə başladı: «Tövbə edin!
Çünki Səmavi Padşahlıq yaxınlaşıb».

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Lk 9,22-25*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

O dedi: «Bəşər Oğlu çox əzab çəkməli, ağsaqqallar, başçı kahinlər və ilahiyyatçılar tərəfindən rədd olunmalı, öldürülməli və üçüncü gün dirilməlidir». Sonra hamısına söylədi: «Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və hər gün çarmıxını götürüb ardımca gəlsin. Kim canını xilas etmək istəyirsə, onu itirəcək, amma kim Mənim uğrumda canını itirirsə, onu xilas edəcək. İnsan bütün dünyanı qazanıb canını məhv edər yaxud itirərsə, ona nə xeyri var?

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# KÜL ÇƏRŞƏNBƏSİNDƏN SONRA

## Cümə 5ci gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 58, 1-9a*

«Avazla çığırın, çəkinməyin, səsinizi şeypur səsi kimi ucaldın, xalqıma üsyankarlığını, Yaqub nəslinə günahlarını bildirin! Onlar hər gün Məni axtarır, mənim yolumu öyrənməkdən zövq alır. Sanki bu əməlisaleh, Allahının hökmündən ayrılmayan millət imiş. Onlar Məndən düzgün hökmlər diləyirdi, Allaha yaxınlaşmaqdan zövq alırdı. Onlar belə deyir: “Oruc tutduğumuzu nə üçün örmürsən, özümüzü aşağı tutanda, sən niyə fikir vermirsən?” Baxın, oruc tutduğunuz gün siz istədiyinizi edirsiniz, bütün işçilərinizi sıxışdırırsınız. Baxın, orucunuzu savaşma ilə, dava ilə, umruqla, döyməklə keçirirsiniz. Səsinizi ucalara çatdırmaq üçün bugünkü kimi sizə oruc tutmaq olmaz. İstədiyim oruc, insanın özünü aşağı tutduğu gün belə olmalı idimi? Bu, qamış kimi başınızı əyib, əyninizə çul geyib, kül üstündə oturmağınızdırmı? Bunamı oruc və Rəbbə məqbul olan gün deyirsiniz? Mənim istədiyim orucsa haqsızlığın buxovlarını qırmaq, boyunduruğun iplərini açmaq, sıxıntı içində olanları azad etmək, hər cür boyunduruğu məhv etmək deyilmi? Yediyiniz çörəyi acla bölüşdürmək, yurdsuz kasıbları evinizə gətirmək deyilmi? Mənim istədiyim oruc bu deyilmi? Çılpaq görəndə geyindirmək, yaxınlarınızdan köməyinizi əsirgəməmək deyilmi? Onda nurunuz şəfəq kimi saçacaq, tezliklə şəfa tapacaqsınız, qarşınızda salehliyiniz gedəcək, Rəbbin izzəti sizə arxa olacaq. O vaxt Rəbbi köməyə çağıracaqsınız, Rəbb cavab verəcək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 51, 12. 3-4a.**
**N: Allah sınan və peşman olan ürəyə xor baxmaz.**

Məhəbbətinə görə, ey Allah, mənə rəhm et,
Bol mərhəmətinə görə qanunsuzluqlarımı sil.
Təqsirimi tamamilə yu, günahımdan məni təmizlə.

Çünki qanunsuzluqlarımı bilirəm,
Günahım daim gözümün qarşısındadır.
Sənə, yalnız Sənə qarşı günah işlətmişəm,
Gözündə pis sayılanı etmişəm.

Sən qurbanlardan zövq almazsan, yoxsa kəsərdim.
Yandırma qurbanlarından razı qalmazsan,
Allaha məqbul olan qurban sınmış ruhdur,
Sən sınan və peşman olan ürəyə xor baxmazsan, ey Allah!

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Amos 5,14a.15*
Pislikdən yaxşılığa dönün ki, sağ qalasınız! Rəbb, həqiqətən, sizə yar olacaq.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Mt 9, 14-15*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

O zaman Yəhyanın şagirdləri İsanın yanına gəlib dedilər: «Nə üçün biz və fariseylər çox oruc tuturuq, amma Sənin şagirdlərin oruc tutmur?» İsa onlara cavab verdi: «Bəy yanlarında olanda sağdışı və soldışı yas tuta bilərmi? Lakin bəyin onların arasından aparılacağı günlər gələcək və o zaman oruc tutacaqlar.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# KÜL ÇƏRŞƏNBƏSİNDƏN SONRA Şənbə 6

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 58,9b-14*

Yəni başqalarına zülm etməyinizi aranızdan rədd etsəniz, barmaq uzadıb şər sözlər söyləməyə yol verməsəniz, can-dildən acların qayğısına qalsanız, fəqirlərin ehtiyaclarını ödəsəniz, nurunuz qaranlıqda parlayacaq, qaranlığınız günorta işığı kimi nur saçacaq. Rəbb həmişə sizə yol göstərəcək, quru torpaqlarda sizi doyuzduracaq, güc verəcək. Siz də sulanmış bağça kimi, suları heç vaxtı əskilməyən bulaq kimi olacaqsınız. Sizdən törənənlər qədim dağıntıları tikəcək, nəsillərdən qalma təməllərin üstünü siz bərpa edəcəksiniz. Sizə xarabalıqları bərpa edənlər, camaatın yaşaması üçün
Küçələri yenidən quranlar deyiləcək. Şənbə günündə büdrəməsəniz, müqəddəs günümdə istədiyinizi etməsəniz, şənbə gününü "şən gün", Rəbbin müqəddəs gününü "Şərəfli gün" adlandırsanız, öz yolunuzla getməməklə, istədiyinizi əldə etməməklə, boşboğazlıqla məşğul olmamaqla, o günü əziz tutsanız, Rəblə ünsiyyətdən zövq alacaqsınız. O zaman Mən sizi yer üzünün yüksək yerlərinə çıxaracağam, Atanız Yaqubun payından dadacaqsınız». Bu sözlər Rəbbin ağzından çıxıb.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 86, 1-2. 3-4.5-6**

**N: Ya Rəbb, mənə yolunu göstər, həqiqətinlə addımlayım.**

Ya Rəbb, mənə qulaq asıb cavab ver, çünki mən məzlumam, fəqirəm.
Möminəm, Sən Özün məni qoru, ey Allahım, Sənə güvənən bəndəni qurtar.

Rəhm et mənə, ey Xudavənd, çünki bütün gün Səni səsləyirəm!
Bu bəndənin qəlbini sevindir, ey Xudavənd, Sənə ürəyimi təqdim edirəm.

Çünki Sən, ey Xudavənd, xeyirxahsan, bağışlayan Sənsən,
Səni səsləyənlərin hamısı üçün məhəbbətin boldur.
Ya Rəbb, duamı dinlə,yalvarışlarımın səsinə qulaq as.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yez 33,11*

"Pis adamın ölümündən yox, onun öz yolundan dönüb yaşamasından zövq alıram" Xudavənd Rəbb bəyan edir.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Lk 5, 27-32*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Bundan sonra İsa bayıra çıxdı və vergi yığılan yerdə oturan Levi adlı vergiyığanı görüb ona dedi: «Ardımca gəl». O da durub hər şeyi atdı və İsanın ardınca getdi. Sonra Levi evində İsaya böyük bir qonaqlıq verdi. Onlarla birgə bir çox vergiyığan və başqa adamlar süfrəyə oturmuşdu. Fariseylərlə onların ilahiyyatçıları şikayət etməyə başladı. Onlar İsanın şagirdlərinə dedi: «Niyə vergiyığanlar və günahkarlarla birgə yeyib-içirsiniz?» Amma İsa onlara belə cavab verdi: «Sağlamların deyil, xəstələrin həkimə ehtiyacı var. Mən salehləri deyil, günahkarları tövbəyə çağırmaq üçün gəlmişəm».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 1ci həftə | Bazar ertəsi 1ci gün

**Levililər kitabından sözlər** *Lev 19, 1-2.11-18*

Rəbb Musaya dedi: «Bütün İsrail övladlarının icmasına bəyan edib de: "Müqəddəs olun, çünki Mən Allahınız Rəbb müqəddəsəm. Oğurlamayın, bir-birinizə yalan satıb aldatmayın. Allahınızın adını ləkələməmək üçün adıma yalandan and içməyin. Rəbb Mənəm.

`Qonşunu istismar etmə, onu soyma; muzdlu işçinin zəhmət haqqını axşamdan səhərəcən özündə saxlama. Kar adamı söymə və kor adamın qarşısına büdrədən heç bir şey qoyma. Allahından qorx. Rəbb Mənəm.

Məhkəmədə haqsızlıq etməyin. Nə yoxsula üstünlük ver, nə də varlıya meyl sal, amma bir-birinizi ədalətlə mühakimə edin.Xalq arasında xəbərçilik etmə; qonşunun qanının tökülməsini istəmə. Rəbb Mənəm.

Soydaşına qarşı ürəyində nifrət bəsləmə. Başqa adamı mütləq tənbeh et ki, sən də günahının cəzasını çəkməyəsən. Öz xalqından heç kəsdən qisas alma, heç kimə qarşı kin saxlama. Ancaq qonşunu özün kimi sev. Rəbb Mənəm.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 19, 7.8.9.14**

**N: Ya Rəbb, Sənin sözlərin ruh və həyatdır**

Rəbbin qanunu kamildir, canı təzələyir,
Rəbbin öyüdü etibarlıdır, nadanı müdrik edir.

Rəbbin qayda-qanunları düzdür, ürəyi sevindirir,
Rəbbin əmrləri pakdır, gözləri aydın edir.

Rəbb qorxusu safdır, əbədi yaşayır,
Rəbbin hökmləri haqdır, hamısı ədalətlidir.

Ağzımdan çıxan sözlər, qəlbimdəki düşüncələr
hüzurunda qəbul olunsun. Ya Rəbb, ey Qayam və Satınalanım!

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *2Kor 6,2b*
Budur, indi münasib vaxt, budur, indi xilas günü.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Mt 25, 31-46*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Bəşər Oğlu bütün mələklərlə birlikdə izzəti ilə gələn zaman Öz izzətli taxtına oturacaq. Bütün millətlər Onun önündə toplaşacaq, O da qoyunları keçilərdən ayıran bir çoban kimi onları bir-birindən ayıracaq. Qoyunları sağına, keçiləri isə soluna qoyacaq.
O zaman Padşah sağındakılara deyəcək: "Ey sizlər, Atamın xeyir-dua verdiyi adamlar! Gəlin, dünya yaranandan bəri sizin üçün hazırlanmış olan Padşahlığı irs alın. Çünki ac idim, Mənə yemək verdiniz; susamışdım, Mənə su verdiniz; qərib idim, Məni qəbul etdiniz; çılpaq idim, Məni geyindirdiniz; xəstə idim, qayğımı çəkdiniz; zindanda idim, yanıma gəldiniz". Onda salehlər Ona cavab verib deyəcəklər: "Ya Rəbb, biz Səni nə vaxt ac görüb yemək verdik və ya susamış görüb su verdik? Nə vaxt Səni qərib görüb qəbul etdik və ya çılpaq görüb geyindirdik? Nə vaxt Səni xəstə və ya zindanda görüb yanına gəldik?" Padşah da cavab verib onlara deyəcək: "Sizə doğrusunu deyirəm: siz bu ən kiçik qardaşlarımdan birinə etdiyinizi Mənə etmiş oldunuz".

O zaman solundakılara deyəcək: “Ey lənətə gəlmişlər, çəkilin önümdən! İblislə onun mələklərinə hazırlanmış olan əbədi oda yollanın! Çünki ac idim, Mənə yemək vermədiniz; susamışdım, Mənə su vermədiniz; qərib idim, Məni qəbul etmədiniz; çılpaq idim, Məni geyindirmədiniz; xəstə və zindanda idim, qayğımı çəkmədiniz”. Onda onlar da cavab verib deyəcəklər: “Ya Rəbb, Səni nə vaxt ac, susamış, qərib, çılpaq, xəstə və yaxud zindanda gördük ki, Sənə xidmət etmədik?” O zaman onlara cavab verib deyəcək: “Sizə doğrusunu deyirəm: siz bu ən kiçiklərdən birinə etmədiyinizi Mənə etməmiş oldunuz”. Bunlar əbədi əzaba, salehlərsə əbədi həyata gedəcək».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 1ci həftə | Çərşənbə axşamı 2ci gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 55, 10-11*

Yağış və qar necə göylərdən yağıb oraya qayıtmırsa, ancaq torpağı sulayıb yeri məhsuldar edirsə, əkinçiyə toxum, yeyənə çörək verirsə, ağzımdan çıxan kəlmə də belədir: Boş yerə yanıma qayıtmaz, ancaq istədiyimi yerinə yetirər, onu göndərdiyim iş icra olunsun deyə həyata keçirər.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 34, 3-4. 5-6. 15-16. 17-18**

**N: Rəbbi müqəddəs tutub ismini ucaldaq.**

Gəlin mənimlə birgə Rəbbi müqəddəs tutaq, Rəbbin ismini birgə ucaldaq.
Rəbbə üz tutdum, O mənə cavab verdi, O hər bir dəhşətdən məni xilas etdi.

Rəbbə baxan nur saçar, üzü qızarmaz.
Mən məzlum, Rəbbi çağırdım, O məni eşitdi, bütün əzablarımdan məni xilas etdi.

Rəbbin gözü salehlərin üzərindədir, qulaqları onların fəryadlarına açıqdır.
Rəbbin üzü şər iş görənlərə qarşıdır, yer üzündə onlardan nişanə qoymayacaq.

Salehlər fəryad çəkəndə Rəbb eşidir, Onları bütün əzablarından azad edir.
Rəbb qəlbisınıqlara yaxındır, O, ruhən əzilmişləri qurtarır.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Mt 4,4b*

İnsan yalnız çörəklə deyil,
Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar” deyə yazılmışdır».
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Mt 6, 7-15*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Dua edəndə bütpərəstlər kimi boşboğazlıq etməyin.
Çünki onlar düşünür ki, çox söz söyləməklə eşidiləcəklər. Siz onlara bənzəməyin!
Çünki Atanız nələrə ehtiyacınız olduğunu siz Ondan diləməzdən əvvəl bilir.
Buna görə siz belə dua edin:
“Göylərdə olan Atamız, Adın müqəddəs tutulsun,
Padşahlığın gəlsin, Göydə olduğu kimi
Yerdə də Sənin iradən olsun. Gündəlik çörəyimizi bizə bu gün ver.
Bizə borclu olanları bağışladığımız kimi bizim borclarımızı da bağışla.
Bizi sınağa çəkmə, lakin bizi şər olandan xilas et.
Çünki padşahlıq, qüdrət və izzət əbədi olaraq Sənindir. Amin”.
Əgər başqa insanların təqsirlərini bağışlasanız, Səmavi Atanız da sizi bağışlayar.
Amma siz başqa insanları bağışlamasanız, Atanız da sizin təqsirlərinizi bağışlamaz.
**Bu Rəbbin Kəlamıdır.**

# ORUC | 1ci həftə | Çərşənbə 3cü gün

**Peyğəmbər Yunusun kitabından sözlər** *Yun 3, 1-10*

Rəbbin sözü Yunusa ikinci dəfə nazil oldu: «Qalx, Ninevaya – o böyük şəhərə get və sənə söyləyəcəyim sözləri onlara car çək».Yunus Rəbbin sözünə görə qalxıb Ninevaya getdi. Nineva Allahın nəzərində böyük şəhər idi. Oranı üç günə gəzib-dolaşmaq olardı. Yunus şəhəri gəzməyə başlayıb bir günlük yol getdi və car çəkərək dedi: «Qırx gündən sonra Nineva dağılacaq!»

Ninevalılar Allaha inandılar, oruc elan edərək böyükdən kiçiyə qədər hamı çul geyindi. Bu xəbər Nineva padşahına çatanda o, taxtından qalxaraq şahlıq libasını əynindən çıxartdı və çul geyinib külün üstündə oturdu. Padşah özünün və əyanlarının adından buyurdu ki, Ninevada elan edib desinlər: «Nə insanlar, nə heyvanlar, nə mal-qara, nə də ki qoyun-keçi heç nə yeməsin, otlağa getməsin və su içməsin. İnsanlar da, heyvanlar da çul geyinsin və var gücləri ilə Allaha fəryad etsin. Hər kəs öz pis yolundan və əllərinin zorakılığından dönsün. Kim bilir, bəlkə Allah rəhmə gəlib, qızğın qəzəbini bizdən döndərər və biz məhv olmarıq». Allah onların işlərini, pis yoldan döndüklərini gördü. Ona görə də rəhm edib əvvəlcə onların üstünə göndərmək istədiyi bəlanı göndərmədi.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 51, 1-2. 10-11. 16-17**
**N: Allah sınan ürəyə xor baxmaz.**

Məhəbbətinə görə, ey Allah, mənə rəhm et,
bol mərhəmətinə görə qanunsuzluqlarımı sil.
Təqsirimi tamamilə yu, günahımdan məni təmizlə.

Ey Allah, məndə təmiz ürək yarat, daxilimə yenidən sədaqət ruhunu ver.
Məni Öz hüzurundan atma, Müqəddəs Ruhunu məndən götürmə.

Sən qurbanlardan zövq almazsan, yoxsa kəsərdim.
Yandırma qurbanlarından razı qalmazsan,
Allaha məqbul olan qurban sınmış ruhdur,
Sən sınan və peşman olan ürəyə xor baxmazsan, ey Allah!

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yoel 2, 12-13*
Bütün qəlbinizlə Mənə dönün. Çünki Mən, lütfkar və rəhmliyəm.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Lk 11, 29-32*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Camaat Onun ətrafına yığılanda İsa danışmağa başladı: «İndiki nəsil pis nəsildir. Onlar əlamət axtarır, amma onlara Yunusun əlamətindən başqa heç bir əlamət verilməyəcək. Çünki Yunus Nineva əhalisinə necə bir əlamət oldusa, Bəşər Oğlu da bu nəsil üçün belə olacaq. Cənub mələkəsi qiyamət günündə bu nəslin adamları ilə birgə qalxıb onları məhkum edəcək. Çünki mələkə Süleymanın hikmətli sözlərini dinləmək üçün yer üzünün ucqarlarından gəlmişdi. Budur, Süleymandan daha böyük Olan buradadır. Nineva xalqı qiyamət günündə bu nəsillə birgə qalxıb onu məhkum edəcək. Çünki onlar Yunusun vəzinə görə tövbə etmişdilər. Budur, Yunusdan daha böyük Olan buradadır.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 1ci həftə | Cümə axşamı 4cü gün

**Birinci oxunuş (Est 14, 1. 3-5.12-14) ***

Ölüm iztirabına düçar olmuş, amansız təhlükə ilə üzləşən Mələkə Ester də Rəbbinə sığındı və İsrailin Allahı Rəbbə yalvararaq belə dedi:
«Rəbbim mənim! Padşahımız yalnız Sənsən; mənə kömək et, tənhayam, Səndən başqa köməyim yoxdur; çünki bəla məni haqlayıb. Həyatım təhlükədədir. Uşaqlıqdan bəri ailəmlə birlikdə olarkən onların mənə öyrətdiklərinə görə, Rəbbim, Sən bütün xalqlar arasından İsraili seçdin, qədim dövrlərdə yaşamış bütün ulu babalar arasında atalarımızı seçdin, biz əbədi olaraq Sənin mirasın olacağıq. Onlara söz verdiyin kimi davrandın.

Bizi yada sal, Rəbbim; təhlükəli günlər yaşadığımız zaman verdiyin ilhamla Özünü bizə göstər. Mənə cəsarət ver. Sən allahların Padşahısan və bütün başçıların Ağasısan. Bu aslanla qarşılaşdığım zaman dilimə xoş sözlər qoy; onun ürəyini bizi təqib edənə qarşı nifrətlə doldur ki, düşmənimizin və onunla əlbir olanların sonu gəlsin. Bizi isə qüdrətinlə qurtar, mənə kömək et, çünki tənhayam, Səndən başqa kimsəm yoxdur, Rəbbim.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 138, 1-2a.2b-3. 7a-8b**

**N: Allahı çağıranda mənə cavab verib.**

Bütün qəlbimlə Sənə şükür edirəm,
«Allahlar»ın önündə Səni tərənnüm edirəm.
Müqəddəs məbədinə tərəf səcdə edirəm.

Məhəbbətin, sədaqətin naminə isminə şükür edirəm.
Səni çağıranda mənə cavab vermisən,
Canıma taqət verib məni ürəkləndirmisən.

Sıxıntı içində gəzsəm də, mənə həyat verirsən.
Ya Rəbb, məhəbbətin əbədidir. Öz əlinin işini tərk etmə!

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Zəb 51, 10a-12a*

Ey Allah, məndə təmiz ürək yarat,
xilasının sevincini mənə qaytar.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Mt 7, 7-12*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Diləyin, sizə veriləcək, axtarın, tapacaqsınız, qapını döyün və sizə açılacaq. Çünki hər diləyən alar, axtaran tapar, qapı döyənə açılar. Aranızdan kimsə oğlu ondan çörək diləsə, ona daş verərmi? Ya da balıq diləsə, ona ilan verərmi? Beləliklə, siz pis olduğunuz halda öz övladlarınıza yaxşı hədiyyələr verməyi bilirsinizsə, göylərdə olan Atanızın Ondan diləyənlərə gözəl hədiyyələr verəcəyi nə qədər yəqindir! İnsanların sizinlə necə rəftar etməsini istəyirsinizsə, siz də onlarla elə rəftar edin. Çünki Qanun və Peyğəmbərlərin söylədiyi də elə budur.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 1ci həftə | Cümə 5ci gün

**Peyğəmbər Yezekelin kitabından sözlər** *Yez 18,21-28*

Pis adam etdiyi bütün günahlardan dönərsə, bütün qaydalarıma riayət edib ədalətli və saleh işlər görərsə, əlbəttə, ölməyib yaşayacaq. Etdiyi günahlardan heç biri onun ayağına yazılmayacaq, gördüyü saleh işlərlə yaşayacaq”. Xudavənd Rəbb bəyan edir: “Elə bilirsiniz ki, Mən pis adamın ölümündən zövq alıram? İstəyirəm ki, o öz yolundan dönsün və yaşasın. Ancaq saleh adam öz salehliyindən dönüb pislik edərsə, pis adamın etdiyi bütün iyrənc işləri görərsə, yaşayacaqmı? Etdiyi saleh işlərindən heç biri onun ayağına yazılmayacaq. Etdiyi xainlik və işlədiyi günahından ötrü öləcək. Ancaq siz ‹Xudavəndin yolu düz deyil› deyirsiniz. Ey İsrail nəsli, indi qulaq asın: Mənimmi yolum düz deyil? Düz olmayan sizin yollarınız deyilmi? Saleh adam öz salehliyindən dönüb pislik edərsə, buna görə öləcək. Bəli, etdiyi pisliyə görə öləcək. Pis adam da etdiyi pislikdən dönüb ədalətli və saleh işlər görərsə, öz həyatını qoruyar. Bir halda ki diqqət edib elədiyi bütün günahlardan dönürsə, əlbəttə, ölməyib yaşayacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 130, 1-2. 3-4. 5-6b/7a. 7bc-8**
**N: Ey Xudavənd, kim qarşında dayana bilər?**

Ya Rəbb, dərinliklərdən Səni səsləyirəm.
Ey Xudavənd, səsimi eşit, yalvarış səsimi yaxşı dinlə.

Ya Rəbb, bizim təqsirlərimizi siyahıya alsan,
Bəs, ey Xudavənd, kim bunun qarşısında dayana bilər?
Amma Sən bağışlayansan, ona görə hamı Səndən çəkinir.

Rəbbi gözləyirəm, döyünən ürəyim gözləyir, Onun sözünə ümid edirəm.
Bəli, keşikçilər səhərin açılmasını gözlər,
Qəlbimsə bundan da çox Xudavəndin həsrətini çəkər.

Ey İsrail, Rəbbə ümidini bağla!
Çünki Rəbdə məhəbbət var, Onda bol-bol qurtuluş var.
Ey İsrail, O səni bütün təqsirlərindən azad edər!

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yez 18, 31*
Etdiyiniz günahların hamısını üstünüzdən götürün,
özünüzdə yeni ürək və yeni ruh yaradın.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Mt 5, 20-26*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Sizə bunu deyirəm: əgər sizin salehliyiniz ilahiyyatçılarla fariseylərin salehliyindən artıq olmasa, Səmavi Padşahlığa əsla girə bilməzsiniz. Siz qədim zamanlarda adamlara “Qətl etmə, kim qətl edərsə, mühakiməyə məruz qalacaq” deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, qardaşına hirslənən hər kəs mühakiməyə məruz qalacaq. Kim qardaşına “axmaq” deyərsə, Ali Şuranın hökmünə məruz qalacaq. Kim qardaşına “səfeh” deyərsə, cəhənnəm oduna məruz qalacaq. Buna görə də qurbangah qarşısına qurbanını gətirdiyin zaman yadına düşsə ki, qardaşının sənə qarşı bir şikayəti var, qurbanını qurbangahın qarşısında qoy, get, əvvəlcə qardaşınla barış və ondan sonra gəl, qurbanını təqdim et. Səni ittiham edənlə yolda ikən tez razılaş ki, o səni hakimə, hakim də səni mühafizəçiyə verməsin və zindana atılmayasan. Sənə doğrusunu deyirəm: axırıncı qəpik-quruşunu verməyincə oradan əsla çıxmayacaqsan.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 1ci həftə | Şənbə 6cı gün

**Qanunun təkrarı kitabından sözlər** *Qanun 26, 16-19*

Bu gün Allahınız Rəbb bu qaydalara, hökmlərə əməl etməyi sizə buyurur. Onlara bütün qəlbinizlə, bütün varlığınızla əməl etmək üçün diqqətli olun. Bu gün Rəbbin Allahınız olduğunu, Onun yolları ilə gedəcəyinizi, qanunlarına, əmrlərinə, hökmlərinə riayət edəcəyinizi, Onun sözünə qulaq asacağınızı bəyan etdiniz. Bu gün Rəbb sizə verdiyi sözə görə bəyan etdi ki, Ona məxsus xalq olasınız. Ona görə də bütün əmrlərinə riayət etməlisiniz. O zaman dediyi kimi Allahınız Rəbb, yaratdığı bütün millətlərdən tərifdə, şöhrətdə və hörmətdə sizi üstün edəcək ki, Allahınız Rəbb üçün təqdis edilmiş xalq olasınız».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 119, 1-2. 4-5. 7-8**

**N: Rəbbin qanununa görə yaşayanlar nə bəxtiyardır!**

Nə bəxtiyardır öz yolunda kamil olanlar, Rəbbin qanununa görə yaşayanlar.
Nə bəxtiyardır Onun göstərişlərinə əməl edənlər, bütün qəlbi ilə Onu axtaranlar.

Sən qayda-qanunlarını qoydun, bunlara bağlı qalmağı buyurdun.
Sənin qaydalarına bağlı qalmaq üçün kaş tutduğum yolda möhkəm olaydım.

Adil hökmlərini öyrənərkən, Sənə düz qəlblə şükür edəcəyəm.
Sənin qaydalarına əməl edəcəyəm, Sən məni tamamilə tərk etmə!

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *2Kor 6, 2b*

Budur, indi münasib vaxt, budur, indi xilas günü.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Mt 5, 43-48*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**

K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *

**M: Şan-şərəf Rəbbindir.**

"Qonşunu sev və düşməninə nifrət et" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, düşmənlərinizi sevin, sizi təqib edənlər üçün dua edin. Belə ki siz göylərdə olan Atanızın övladları olasınız.

Çünki O, günəşini həm pislərin, həm yaxşıların üzərinə doğurur, yağışını da həm salehlərin, həm də saleh olmayanların üzərinə yağdırır. Əgər sizi sevənləri sevirsinizsə, nə mükafatınız olacaq? Vergiyığanlar da belə etmirmi? Əgər yalnız qardaşlarınızı salamlayırsınızsa, başqalarından artıq nə etmiş olursunuz? Bütpərəstlər də belə etmirmi? Ona görə də Səmavi Atanız kamil olduğu kimi siz də kamil olun.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 2ci həftə | Bazar ertəsi 1ci gün

**Peyğəmbər Danielin kitabından sözlər** *Dan 9, 4b-10*

Sənə dua edirəm, ey böyük və zəhmli Xudavənd Allah! Səni sevənlər və əmrlərinə əməl edənlər üçün əhdinə sadiq qalıb məhəbbət göstərirsən. Biz günah və təqsir etdik, pislik edib Sənə qarşı üsyankar olduq. Sənin əmrlərindən və hökmlərindən üz döndərdik. Padşahlarımıza, başçılarımıza, atalarımıza və ölkənin bütün xalqına Sənin adınla söz deyən qulların peyğəmbərlərə qulaq asmadıq. Ey Xudavənd, Səndə ədalət var, bizdə isə bugünkü kimi üz qaralığı! Bu, Yəhuda adamlarına, Yerusəlimdə yaşayanlara və Sənə qarşı etdikləri xainlikdən ötrü sürgün etdiyin bütün ölkələrdə, yaxında və uzaqda olan İsraillilərin hamısına aiddir. Ya Rəbb, bizim padşahlarımızın, başçılarımızın və atalarımızın üzü qaradır, çünki Sənə qarşı günah etmişik. Mərhəmət və bağışlamaq isə Xudavənd Allahımıza məxsusdur, çünki biz Ona qarşı üsyan etmişik.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 79, 8. 9. 11. 13**

**N: İsmin naminə Sən bizi xilas et.**

Ata-babalarımızın günahını boynumuza qoyma,
Nə qədər alçalmışıq, mərhəmətini bizə tez göstər.

Ey bizi qurtaran Allah, günahlarımızı kəffarə edərək
İsmin naminə Sən bizi xilas et. İsmin şərəfinə Sən bizə yardım et,

Qoy əsirlərin ah-naləsi hüzuruna çatsın,
Ölümə aparılanları böyük qüdrətinlə qoru.

Biz Sənin xalqın, otlağının sürüsüyük, əbədilik Sənə şükür edərik,
Nəsildən-nəslə qədər həmdlərini bəyan edərik!

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yəh 6, 63b. 68b*
Bizə söylədiyin sözlər Ruh və həyat gətirir.
Əbədi həyatın sözlərini söyləyən Sənsən.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Lk 6, 36-38*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Atanız mərhəmətli olduğu kimi siz də mərhəmətli olun. Mühakimə etməyin, siz də mühakimə olunmazsınız. Hökm çıxarmayın, sizə də hökm çıxarılmaz. Başqalarını bağışlayın, siz də bağışlanacaqsınız. Verin, sizə də veriləcək: silkələnib basa-basa dolan bol bir ölçü ilə sizə qucaq-qucaq veriləcək. Çünki hansı ölçü ilə ölçsəniz, sizin üçün də eyni ölçü ilə ölçüləcək».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 2ci həftə | Çərşənbə axşamı 2ci gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 1, 10.16-20*
Ey Sodom başçıları, Rəbbin sözünü eşidin! Siz, ey Homorra xalqı,
Allahımızın təlimini dinləyin! Yuyunub təmizlənin,
gözümün önündə işlərinizi şərdən uzaqlaşdırın,
pislik etməkdən vaz keçin. Yaxşılıq etməyi öyrənin, ədaləti axtarın,
Məzlumları qurtarın, yetimin haqqını qoruyun, dul qadını müdafiə edin».
Rəbb deyir: «Gəlin indi birgə düşünək bu an, günahlarınız qıpqırmızı parça kimi
görünsə də, onlar qar kimi ağ olacaq, tünd qırmızı rəngə çalsa da,
onlar ağ yun kimi bəyaz olacaq. İtaətkar olub sözə baxsanız,
torpağın ən gözəl bəhrələrindən yeyərsiniz. Əgər üsyankar olub Məni rədd etsəniz,
qılınc sizi yeyəcək». Bu sözlər Rəbbin ağzından çıxıb.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 50, 8-9. 16bc-17. 21ab-23**

**N: Allah öz varislərinə xilası bəyan edir.**

Qurbanlarından ötrü səni tənbeh etmirəm,
Yandırma qurbanlarını həmişə görürəm.
Tövləndəki buğanı, ağılındakı təkəni Səndən qəbul etmirəm.

Qaydalarımı əzbər söyləməyə haqqınız varmı?
Əhdimi dilə gətirməyə haqqınız varmı?
Mənim iradıma nifrət edirsən, sözlərimi qulaq ardına vurursan.

Sən belə edəndə Mən dinməmişəm. Məgər Məni özün kimi sanırsan?
Kim ki şükür qurbanı təqdim edir, Məni şərəfləndirir.
Doğru yol tutan şəxsə Allahın xilasını göstərəcəyəm».

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yez 18, 31*
Xudavənd Rəbb belə bəyan edir: Etdiyiniz günahların hamısını üstünüzdən götürün, özünüzdə yeni ürək və yeni ruh yaradın.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Mt 23, 1-12*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Bundan sonra İsa camaata və şagirdlərinə müraciət edib dedi: «İlahiyyatçılar və fariseylər Musanın kürsüsündə oturmuşlar. Buna görə də sizə əmr etdikləri hər şeyə riayət və əməl edin. Amma onların etdiklərini etməyin, çünki söyləyərlər, amma riayət etməzlər. Ağır və çətin daşına bilən yükləri bağlayıb insanların çiyninə yükləyərlər, özləri isə bu yükləri daşımaq üçün barmaqlarını belə, tərpətmək istəməzlər. Onlar öz əməllərinin hamısını insanlar görsün deyə edərlər. Çünki onlar dua qutucuqlarını genişləndirib geyimlərinin qotazlarını uzadarlar. Ziyafətlərdə yuxarı başı və sinaqoqlarda baş kürsüləri tutmağı, bazar meydanlarında salam almağı, insanların onlara “Rabbi!” deyə xitab etməsini sevərlər. Amma kimsə sizi “Rabbi” deyə çağırmasın. Çünki sizin bir Müəlliminiz var. Siz hamınızsa qardaşsınız. Yer üzündə kimsəyə “ata” deməyin. Çünki bir Atanız var, O da Səmavi Atadır. Kimsə sizə “rəhbər” deməsin. Çünki bir Rəhbəriniz var, O da Məsihdir. Aranızda ən böyük olan xidmətçiniz olsun. Kim özünü yüksəldərsə, aşağı tutulacaq və kim özünü aşağı tutarsa, yüksəldiləcək.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 2ci həftə | Çərşənbə 3cü gün

**Peyğəmbər Yeremyanın kitabından sözlər** *Yer 18, 18-20*
O zaman onlar dedi: «Gəlin Yeremyaya qəsd quraq. Çünki qanunu öyrədəcək kahin, nəsihət verəcək müdrik adam, söz deyəcək peyğəmbər heç vaxt əskik olmayacaq. Gəlin ona dilimizlə hücum edək, sözlərinə qulaq asmayaq». Ya Rəbb, mənə yaxşı qulaq as,
Mənimlə çəkişənlərin sözünü eşit. Yaxşılığın əvəzində pislik edilərmi? Onlar canımı almaq üçün quyu qazır. Unutma, mən önündə ona görə dayanmışam ki, onlar üçün yaxşı şey istəyim, onlardan qəzəbini döndərim.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 31, 4-5. 13. 14-15**
**N: Ya Rəbb, məhəbbətinlə məni qurtar.**

Məni qarşımda qurulan gizli tordan hifz et, çünki Sən mənim sığınacağımsan!
Ruhumu Sənin əlinə verirəm. Ya Rəbb, sadiq Allah, Sən məni azad et.

Çox adamların pıçıltısını eşidirəm, hər tərəfimi dəhşət alıb,
Hamı əleyhimə əlbir olub, canımı almaq üçün qəsd qurub.

Ya Rəbb, yalnız Sənə güvənirəm, dedim: «Allahımsan Sən».
Mənim hər anım Sənin əlindədir,
Düşmənlərimin, təqibçilərimin əlindən məni azad et.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yəh, 8,12*
Dünyanın nuru Mənəm. Mənim ardımca gələn həyat nuruna malik olacaq.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Mt 20, 17-28*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

İsa Yerusəlimə gedərkən yolda On İki şagirdi kənara çağırıb ayrıca onlara dedi: «Bax Yerusəlimə qalxırıq, Bəşər Oğlu başçı kahinlərə və ilahiyyatçılara təslim olunacaq. Onu ölümə məhkum edəcəklər; ələ salaraq qamçılayıb çarmıxa çəksinlər deyə başqa millətlərə təslim edəcəklər. O, üçüncü gün diriləcək». O zaman Zavday oğullarının anası oğulları ilə birlikdə İsaya yaxınlaşıb səcdə qılaraq Ondan nə isə dilədi. İsa qadından «Sən nə istəyirsən?» deyə soruşdu. Qadın Ona dedi: «Əmr et ki, mənim bu iki oğlum Sənin Padşahlığında biri sağında, biri solunda otursun». Amma İsa cavab verib dedi: «Nə dilədiyinizi özünüz də bilmirsiniz. Mənim içəcəyim kasadan siz də içə bilərsinizmi?» Onlar dedilər: «Bilərik».İsa onlara dedi: «Mənim içəcəyim kasadan içəcəksiniz. Amma sağımda və yaxud solumda oturmağa izin vermək Məndən asılı deyil. Atam oranı kimlər üçün hazırlayıbsa, onlara veriləcək». Bunu eşidən on şagirdin iki qardaşa acığı tutdu. İsa şagirdləri yanına çağırıb dedi: «Bilirsiniz ki, millətlərin rəhbərləri onların üzərində hökmranlıq, əyanları da onlara ağalıq edir. Sizin aranızda isə qoy belə olmasın. Sizlərdən böyük olmaq istəyən xidmətçiniz olsun. Aranızda kim birinci olmaq istəsə, başqalarının qulu olsun. Beləcə Bəşər Oğlu gəlmədi ki, Ona xidmət etsinlər, gəldi ki, Özü xidmət etsin və çoxlarını satın almaq üçün Öz canını fidyə versin».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 2ci həftə | Cümə axşamı 4cü gün

**Peyğəmbər Yeremyanın kitabından sözlər** *Yer 17, 5-10*

Rəbb belə deyir: «O adam lənətlidir ki, insana güvənir, bəşərin gücünə arxalanır, ürəyi Rəbdən ayrılır. O, çöldəki yulğun ağacı kimi olacaq, xeyir gələndə onu görməyəcək. Səhrada olan quraq yerlərdə heç kəs yaşamayan şoranlıqda sakin olacaq. Nə xoşbəxtdir o adam ki, Rəbbə güvənir, Rəbbi özünə arxa sayır.
O, sular kənarında əkilmiş ağac kimi olacaq. Elə ağac ki çay kənarında kök salar, isti gələndə qorxmaz, yarpağı həmişə yaşıl qalar, quraqlıq olan il qayğı çəkməz, bəhər verməkdən qalmaz».
İnsan ürəyi hər şeydən hiyləgərdir, çarəsi yoxdur. Onu kim başa düşə bilər? «Mən Rəbb ürəyi yoxlayıram, insanın fikrini sınayıram ki, hər kəsə əməllərinə görə, işlərinin bəhrəsinə görə əvəz verim».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 1, 1-2. 3. 4/6**

**N: Rəbbə ümidlə arxalanan insan nə bəxtiyardır!**

Pislərin məsləhəti ilə getməyən, günahkarların yolunda dayanmayan,
rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır!
O ancaq Rəbbin Qanunundan zövq alar, gecə-gündüz bu təlimatı dərin düşünər.

Axar sular kənarında əkilən ağac kimi barını mövsümündə verər,
yarpağı solmaz, etdiyi hər işdə uğur qazanar.

Pis adamlarsa belə deyil, onlar yelin sovurduğu saman çöpünə bənzəyər.
Çünki Rəbb salehlərin yolunu bilər, pislərin yolu isə məhv olar.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Lk 8, 15*
Kəlamı eşidib xeyirxah və sadiq ürəkdə saxlayanlar nə bəxtiyardır!
Bunlar səbirlə səmərə verir.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Lk 16, 19-31*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Varlı bir adam var idi. O, tünd qırmızı və incə kətandan paltar geyərdi və hər gün cah-calal içində kef edərdi.Bütün bədəni yaralı olan Lazar adlı yoxsul bir adam da var idi. O, varlı adamın qapısı ağzına gətirilib uzanmışdı. Lazar varlı adamın süfrəsindən tökülən qırıntılarla qarnını doydurmaq arzusunda idi. İtlər də gəlib onun yaralarını yalayırdı. Bir gün yoxsul adam öldü və mələklər onu İbrahimin qucağına apardı. Varlı adam da öldü və dəfn edildi. Varlı adam ölülər diyarında iztirab çəkəndə gözlərini qaldırıb uzaqda İbrahimi və onun qucağında Lazarı gördü. O uca səslə dedi: "Ey İbrahim ata, mənə rəhm et! Lazarı göndər, barmağının ucunu suya batırıb mənim dilimi sərinlətsin, çünki mən bu alov içində əzab çəkirəm". Lakin İbrahim dedi: "Oğlum, yadına sal ki, sən öz həyatında yaxşı şeyləri, Lazar isə pis şeyləri almışdır. İndi isə o, təsəlli tapır, amma sən əzab çəkirsən. Üstəlik, sizinlə bizim aramıza böyük bir uçurum qoyulmuşdur ki, nə buradan sizin tərəfinizə keçmək istəyənlər keçə bilir, nə də oradan bizim yanımıza gələ bilirlər". Varlı adam dedi: "Ata, elə isə yalvarıram sənə, Lazarı atamın evinə göndər. Çünki beş qardaşım var. Qoy onlara xəbərdarlıq etsin ki, onlar da bu iztirab yerinə gəlməsinlər". İbrahim ona dedi: "Onlarda Musanın və Peyğəmbərlərin sözləri var. Qoy onlara qulaq assınlar". Varlı adamsa dedi: "Xeyr, İbrahim ata! Əgər ölülərdən biri onların yanına gəlsə, onlar tövbə edərlər". Onda İbrahim ona dedi: "Əgər onlar Musaya və Peyğəmbərlərə qulaq asmırlarsa, ölülərdən biri dirilsə belə, inanmazlar"».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 2$^{ci}$ həftə | Cümə 5ci gün

**Yaradılış kitabından sözlər** *Yar 37, 3-4. 12-13a. 17b-28*

İsrail Yusifi bütün oğullarından çox sevirdi, çünki Yusif onun qocalıq çağının oğlu idi. O, Yusifə əlvan paltar tikdirdi. Qardaşları gördülər ki, ataları onlardan çox Yusifi sevir. Buna görə də ona nifrət etdilər və onunla yaxşı rəftar etmədilər.
Bir gün Yusifin qardaşları atalarının sürüsünü otarmaq üçün Şekemə getdilər.
İsrail Yusifə dedi: «Qardaşların Şekemdə sürü otarırlar. Gəl səni də onların yanına göndərim». Yusif qardaşlarının dalınca düşdü və onları Dotanda tapdı.

Qardaşları onu uzaqdan gördülər. Yusif onların yanına çatmamış onu öldürmək qərarına gəldilər. Qardaşlar bir-birlərinə dedilər: «Baxın, bu yuxular görən gəlir. İndi gəlin onu öldürüb bir quyuya ataq, sonra da deyək ki, vəhşi heyvan onu parçaladı. Onda görərik, yuxuları necə çin çıxır». Ruven bunu eşidib Yusifi onların əlindən qurtarmaq üçün dedi: «Gəlin ona toxunmayaq». Ruven onlara «qan tökməyin, onu çöldə olan bu quyuya atın, ancaq ona toxunmayın» dedi. Bunu ona görə deyirdi ki, Yusifi qardaşlarının əlindən qurtarıb atasının yanına qaytarsın. Yusif qardaşlarının yanına çatanda onlar Yusifin əyninə geydiyi alabəzək paltarı dartıb çıxartdılar. Özünü də götürüb quyuya atdılar. Quyu boş idi, orada su yox idi. Qardaşlar çörək yemək üçün oturdular. Onlar başlarını qaldıranda gördülər ki, Gileaddan İsmaillilərin bir karvanı gəlir. Onların dəvələri ədviyyat, balzam və ətriyyatla yüklənmişdi və bunları Misirə aparırdılar. Yəhuda qardaşlarına dedi: «Əgər qardaşımızı öldürüb qətli ört-basdır etsək, bunun nə xeyri olar? Gəlin onu İsmaillilərə sataq və ona toxunmayaq, çünki qardaşımızdır, biz eyni qandanıq». Qardaşları onun sözü ilə razılaşdılar. Oradan Midyan tacirləri keçəndə Yusifi quyudan çıxarıb İsmaillilərə iyirmi gümüşə satdılar. Onlar da Yusifi Misirə apardılar.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 105, 16-17. 18-19. 20-21**

**N: Xariqələrini bəyan edin! Rəbbə şükür edin.**

Ölkəyə qıtlıq göndərdi, bütün çörəyin kökünü kəsdi.
Lakin bunlardan əvvəl birini göndərmişdi, bu, qul kimi satılan Yusif idi.

Ayaqlarını zəncirləyib əzdilər, boğazına dəmir halqa keçirdilər.
Yusifin sözü düz çıxanadək Rəbbin sözü onu təmizlədi.

Padşah buyruq verərək onu azad etdi, Xalqların hökmdarı ona azadlıq verdi.
Onu sarayının ağası etdi, varidatı üçün cavabdeh etdi.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yəh 3, 16*
Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki,
Ona iman edən hər kəs əbədi həyata malik olsun.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Mt 21, 33-43. 45-46*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Başqa bir məsəli dinləyin: Ev sahibi olan bir adam var idi. Üzüm bağı saldı, oranın ətrafına çəpər çəkdi. İçində yer qazaraq üzümsıxan düzəltdi, nəzarət qülləsi tikdi. Sonra isə bağı bağbanlara icarəyə verərək başqa ölkəyə getdi. Məhsul vaxtı çatanda məhsulunu almaq üçün qullarını bağbanların yanına göndərdi. Lakin bağbanlar onun qullarını tutub kimini döydülər, kimini öldürdülər, kimini də daşqalaq etdilər. Bağ sahibi yenə əvvəlkindən daha çox başqa qullar göndərdi. Bağbanlar onlarla da əvvəlki kimi etdilər. "Oğluma hörmət edərlər" deyərək axırda öz oğlunu onların yanına göndərdi. Bağbanlarsa oğulu görəndə öz aralarında dedilər: "Varis budur. Gəlin onu öldürək və miras bizə qalsın". Beləcə onu tutub bağdan kənara çıxararaq öldürdülər.Beləliklə, bağın sahibi gəldikdə bu bağbanlara nə edəcək?»Onlar İsaya dedilər: «Bu xainləri dəhşətli şəkildə həlak edəcək, üzüm bağını isə başqa bağbanlara icarəyə verəcək ki, onlar məhsulu öz vaxtında ona versinlər».
İsa onlara dedi: «Məgər siz Müqəddəs Yazılarda bunu heç oxumamısınız?
"Bənnaların rədd etdiyi daş
Guşədaşı olub.
Bu, Rəbbin işi idi,
Gözümüzdə xariqəli bir işdir".
Buna görə sizə deyirəm: Allahın Padşahlığı sizdən alınıb onun məhsullarını yetişdirəcək bir millətə veriləcək. Başçı kahinlər və fariseylər Onun məsəllərini eşitdikdə bu sözləri onlar üçün dediyini başa düşdülər. Ona görə də Onu tutmaq üçün yol axtarırdılar, lakin camaatdan qorxdular, çünki camaat İsanı peyğəmbər hesab edirdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 2ci həftə | Şənbə 6cı gün

**Peyğəmbər Mikeyanın kitabından sözlər** *Mik 7,14-15. 18-20*

Ya Rəbb, mirasın olan sürünü – Öz xalqını çomağınla otar.
O, çöldə indi tənha qalır, ətrafında isə yaxşı otlaq var.
Qoy keçmiş günlərdəki kimi Başan və Gileadda otlasınlar.
«Misirdən çıxdığın günlərdəki kimi sizə möcüzələr göstərəcəyəm».
Sağ qalan xalqının cəzasını aradan götürən, üsyankarlığını bağışlayan
Sənin kimi Allah varmı? Qəzəbini əbədi saxlamazsan, çünki məhəbbət göstərməyi xoşlayırsan. Yenə bizə rəhm edib şər əməllərimizi siləcəksən,
Bütün günahlarımızı dənizin dərinliklərinə atacaqsan.
Qədim zamanda atalarımıza and içdiyin kimi Yaqub nəslinə sədaqətini,
İbrahim övladlarına məhəbbətini göstərəcəksən.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 103, 1-2. 3-4. 9-10. 11-12**
**N: Hədsiz səbirli Rəbb rəhmli və lütfkardır.**

Rəbbə alqış et, ey könlüm, ey bütün varlığım, Onun müqəddəs adına alqış et!
Rəbbə alqış et, ey könlüm, unutma etdiyi yaxşılıqları:

Odur bütün təqsirlərini əfv edən, bütün xəstəliklərinə şəfa verən.
Odur həyatını məzara düşməkdən qurtaran,
məhəbbətin, mərhəmətin tacını başına qoyan.

Həmişə töhmətləndirməz, qəzəbi sonsuza qədər sürməz.
Bizimlə günahlarımıza görə davranmaz, təqsirlərimizin əvəzini çıxmaz.

Çünki göylər yerdən nə qədər ucadırsa,
Ondan qorxanlara olan məhəbbəti o qədər böyükdür.
Nə qədər şərq qərbdən uzaqdırsa, qanunsuzluqlarımızı bizdən o qədər uzaqlaşdırıb.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Lk 15, 18*
Durub atamın yanına gedəcəyəm və ona deyəcəyəm:
‹Ata, mən göyə və sənə qarşı günah etdim.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Lk 15, 1-3. 11-32*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Bütün vergiyığanlar və günahkarlar İsanı dinləmək üçün Ona yaxınlaşırdılar. Fariseylər və ilahiyyatçılar isə «bu adam günahkarları qəbul edir və onlarla yemək yeyir» deyə deyinirdilər. Amma İsa onlara bu məsəli çəkdi: «Bir adamın iki oğlu var idi. Oğlanlardan kiçiyi atasına dedi: "Ata! Var-dövlətindən payıma düşəni mənə ver". Atası da varını onların arasında bölüşdürdü.

Bir neçə gün sonra kiçik oğul nəyi vardısa, yığıb uzaq bir diyara yollandı. Orada pozğun həyat sürüb var-dövlətini heç-puç etdi. Oğlan hər şeyini xərclədikdən sonra o ölkədə böyük bir aclıq oldu. O korluq çəkməyə başladı. Buna görə də oğlan gedib o ölkənin sakinlərindən birinin yanında iş tapdı. Bu adam onu öz otlaqlarına donuz otarmağa göndərdi. Oğlan donuzların yediyi keçibuynuzu qabıqları ilə qarnını doydurmağa şad olardı. Amma heç kim ona bir şey vermirdi. Onda oğlan özünə gəlib dedi: "Atamın nə qədər muzdlu işçisi var, hamısının da doyunca yeməyə çörəyi var. Mənsə burada acından ölürəm! Durub atamın yanına gedəcəyəm və ona deyəcəyəm: ‹Ata, mən göyə və sənə qarşı günah etdim. Mən artıq sənin oğlun adlanmağa layiq deyiləm. Məni öz muzdlu işçilərinin biri kimi qəbul et›". O durub öz atasının yanına getdi. Oğul hələ uzaqda ikən atası onu gördü. Ona rəhmi gəldi və qaçıb onun boynuna sarıldı və öpdü. Oğul dedi: "Ata! Mən göyə və sənə qarşı günah etdim. Mən artıq sənin oğlun adlanmağa layiq deyiləm". Atası isə öz qullarına dedi: "Tez olun, ən gözəl xalat gətirin və onu geyindirin. Barmağına üzük və ayaqlarına çarıq taxın. Kökəldilmiş dananı gətirin, kəsin: gəlin yeyib-şadlanaq! Çünki bu oğlum ölmüşdü, yenə həyata qayıtdı. O itmişdi, tapıldı". Beləliklə, şadlıq etməyə başladılar.

Atanın böyük oğlu isə tarlada idi. Qayıdaraq evə yaxınlaşanda çalğı və rəqs səsləri eşitdi. O, nökərlərdən birini yanına çağırıb soruşdu: "Bu nədir?" Nökər ona dedi: "Qardaşın qayıdıb. Atan da onun sağ-salamat qayıtmasına görə kökəldilmiş dananı kəsib". Böyük oğul isə hirsləndi və içəri girmək istəmədi. Atası bayıra çıxıb ona yalvardı. Amma o, atasına belə cavab verdi: "Bax neçə ildir ki, sənin üçün qul kimi işləyirəm. Heç zaman sənin əmrindən çıxmamışam. Amma mənə heç vaxt bir oğlağı belə, qıymadın ki, dostlarımla şadlıq edim. Bu oğlunsa sənin bütün varını fahişə qadınlara sərf edib. Amma o qayıdanda sən onun üçün kökəldilmiş dananı kəsdin". Atası isə ona dedi: "Oğlum, axı sən həmişə mənimləsən və bütün varım sənindir. Lakin sevinmək və şadlanmaq lazımdır. Çünki sənin bu qardaşın ölmüşdü, həyata qayıtdı. O itmişdi, tapıldı!"»

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 3cü həftə | Bazar ertəsi 1ci gün

**2-ci Padşahlar kitabından sözlər** *2Pad 5, 1-15*

Aram padşahının ordu başçısı Naaman ağasının yanında hörmət və etibar sahibi idi, çünki Rəbb onun vasitəsilə Arama qurtuluş vermişdi. O, cəsur bir döyüşçü idi, ancaq cüzamlı idi. Aramlılar dəstələrlə çıxıb İsrail torpağından kiçik bir qızı əsir götürmüşdülər. Bu qız Naamanın arvadının yanında qalırdı. O, xanımına dedi: «Kaş ki ağam Samariyada peyğəmbərin yanında olaydı. O zaman peyğəmbər onun cüzamına şəfa verərdi». Naaman gedib «İsrail torpağından olan qız belə-belə söylədi» deyə ağasına bildirdi. Aram padşahı dedi: «Get, mən İsrail padşahına bir məktub göndərərəm». Naaman özü ilə altı min şekel qızıl, on talant gümüş və on dəst paltar götürüb getdi. Məktubu da İsrail padşahına gətirdi. Orada belə yazılmışdı: «İndi bu məktubla bərabər qulum Naamanı da yanına göndərirəm ki, sən onun cüzamına şəfa verəsən». İsrail padşahı məktubu oxuyanda paltarını cırıb dedi: «Məgər mən öldürüb-dirildən Allaham? Niyə bu adam cüzamına şəfa vermək üçün mənim yanıma adam göndərir? Baxarsınız, mənimlə dava etmək üçün bəhanə axtarır». Allah adamı Elişa İsrail padşahının öz paltarını cırdığını eşidəndə ona xəbər göndərib dedi: «Nə üçün paltarını cırdın? Qoy indi o mənim yanıma gəlsin və bilsin ki, İsraildə bir peyğəmbər var». Naaman atları və döyüş arabası ilə gəldi və Elişanın evinin qapısında dayandı. Elişa onun yanına qasid göndərib dedi: «Get, İordan çayında yeddi dəfə yuyun ki, bədənin sağalıb tər-təmiz olsun». Ancaq Naaman acıqlanıb getdi və dedi: «Mən güman edirdim ki, mütləq bayıra çıxıb yanıma gələcək, durub Allahı Rəbbin adını çağıracaq və əlini cüzamlı yerin üzərində yelləyib şəfa verəcək. Dəməşqin çayları Avana və Parpar İsrailin bütün sularından daha yaxşı deyilmi? Onlarda yuyunub təmiz ola bilməzdimmi?» O hirslə dönüb getdi. Naamanın adamları onun yanına gəlib dedilər: «Ey atamız, əgər peyğəmbər sənə böyük bir şey əmr etsəydi, ona əməl etməzdinmi? O yalnız sənə “yuyun və təmiz ol” deyir». Bundan sonra Naaman Allah adamının sözünə görə İordan çayına enib yeddi dəfə suya baş vurdu. Onun bədəni sağaldı və körpə bədəni kimi tər-təmiz oldu.

Naaman bütün dəstəsi ilə yenə Allah adamının yanına gəldi və onun önündə dayanıb dedi: «Bax indi bildim ki, İsraildən başqa, dünyanın heç bir yerində Allah yoxdur. Buyur bu qulunun hədiyyəsini götür».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 42, 1. 2. Məzm 43, 3. 4.**
**N: Ey var olan Allah, mənim qəlbim Sənin üçün susayıb.**

Maral axar sulara həsrət qalan kimi,
Ey Allah, könlüm Sənin həsrətini çəkir!

Ey var olan Allah, mənim qəlbim Sənin üçün susayıb.
Ay Allah, nə vaxt gəlib hüzurunda görünüm?

Göndər Öz nurunu, həqiqətini, qoy yolunu mənə göstərsinlər,
Müqəddəs dağına, məskənlərinə, qoy məni aparsınlar.

Onda Allahın qurbangahına, sevincim, fərəhim olan Allahımın yanına gedərəm.
Lira çalıb Sənə şükür edərəm, ey Allah, mənim Allahım.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Zəb 130, 5.7*
Rəbbi gözləyirəm, döyünən ürəyim gözləyir, Onun sözünə ümid edirəm.
Çünki Rəbdə məhəbbət var, Onda bol-bol qurtuluş var.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Lk 4, 24-30*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

«Sizə doğrusunu deyirəm: heç bir peyğəmbər öz yurdunda qəbul edilməz. Yenə də sizə həqiqəti deyirəm ki, İlyasın dövründə göy üç il altı ay ərzində bağlı qalıb bütün ölkədə böyük aclıq olanda İsraildə çoxlu dul qadın var idi. Amma İlyas onlardan heç birinin yanına deyil, Sidonun Sarfat şəhərində olan bir dul qadının yanına göndərildi. Elişa peyğəmbərin dövründə İsraildə çoxlu cüzamlı var idi. Ancaq onlardan heç biri deyil, yalnız Aramlı Naaman pak oldu». Sinaqoqdakı camaatın hamısı bu sözləri eşidib hiddətləndi. Onlar ayağa durdular və İsanı şəhərin kənarına qovdular.
Onu uçurumdan atmaq üçün şəhərin qurulduğu təpənin başına gətirdilər.
Amma İsa onların arasından keçərək oradan çıxıb getdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 3cü həftə | Çərşənbə axşamı 2ci gün

**Daniel peyğəmbərin kitabından sözlər** *Dan 3, 25.34-43*
Aved-Neqo (Azarya) ayağa qalxaraq dua etdi,
ağzını açaraq odun içərisində yüksək səslə car çəkdi:
Amma yenə də Öz ismin naminə, aramızdakı əhdi pozma, bizi həmişəlik tərk etmə,
Sevdiyin İbrahimə görə, qulun İshaqa görə və Sənin müqəddəsin İsrailə görə
Bizdən Öz mərhəmətini əsirgəmə. Sən onlara gələcək nəsillərini göydəki ulduzlar qədər
Və dəniz kənarındakı qum dənələri qədər çoxaldacağına dair söz vermişdin.
Amma indi, Rəbbim, bütün millətlərdən də çox alçalmışıq və günahlarımızdan ötrü
bütün millətlər arasında gözdən düşmüşük. İndi hal-hazırda nə padşahımız,
nə peyğəmbərimiz, nə rəhbərimiz, nə yandırma qurbanlarımız, nə qurbanlarımız,
nə təqdimlərimiz, nə buxur yandırmalarımız və nə də Sənə qurbanlar təqdim edərək
Sənin mərhəmətini əldə etməyimiz üçün bir yerimiz var.
Amma Sən yalnız sarsılan ürəyimiz və itaətli ruhumuzla bizi qəbul et. Qurban verilən
qoçlar, öküzlər və təqdim edilən minlərlə kökəldilmiş quzular kimi, Sənin qarşında
verdiyimiz təqdimlərimiz indi Sənə məqbul olsun; çünki Sənə ümid edənlər utanmazlar.
İndi bütün qəlbimizlə Sənin ardınca gedirik, Səndən qorxuruq və Sənin üzünü axtarırıq.
Bizi rüsvay etmə, amma bizimlə Öz iltifatına və bol mərhəmətinə görə rəftar et.
Öz möcüzələrinin qüdrəti ilə bizi qurtar və Öz ismini izzətləndir, ya Rəbb.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 25, 4-5ab. 6-7bc. 8-9**
**N: Ya Rəbb, yollarını mənə göstər**

Öz yollarını mənə öyrət. Məni haqq yolu ilə apar,
Həqiqətini mənə öyrət. Məni qurtaran Allah Sənsən,

Ya Rəbb, əzəldən bəri var olan, mərhəmətini, məhəbbətini yada sal.
Məni məhəbbətin naminə, ya Rəbb, xeyirxahlığına görə yada sal!

Rəbb xeyirxah və haqdır, ona görə günahkara düz yol göstərir,
İtaətkarları ədalət yolu ilə aparır, Öz yolunu onlara öyrədir.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yoel 2, 12-13*
Rəbb belə bəyan edir: Bütün qəlbinizlə Mənə dönün.
Çünki lütfkar və rəhmli Mənəm.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Mt 18, 21-35*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

O zaman Peter gəlib İsaya dedi: «Ya Rəbb! Qardaşım mənə qarşı günah işlədərsə, neçə dəfə mən onu bağışlamalıyam? Yeddi dəfəmi?» İsa ona dedi: «Sənə deyirəm: yeddi dəfə yox, yetmiş dəfə yeddi. Ona görə də Səmavi Padşahlıq öz qulları ilə hesablaşmaq istəyən bir padşaha bənzəyir. Hesablaşmağa başladığı zaman onun yanına on min talan borcu olan biri gətirildi. Amma onun ödəməyə bir şeyi olmadığı üçün ağası əmr etdi ki, özü, arvadı, uşaqları və bütün malı satılaraq borcunu ödəsin. Elə bu vaxt qul yerə qapanıb ona səcdə edərək dedi: "Səbir et! Mən hamısını ödəyəcəyəm". Ağasının o qula rəhmi gəldi, onu buraxdı və borcunu bağışladı. Amma o qul kənara çıxıb ona yüz dinar borclu olan bir yoldaşını tapdı. Onu yaxaladı və "Borcunu ödə!" deyərək boğmağa başladı. Yoldaşı yerə qapanıb ona "səbir et, borcunu ödəyəcəyəm" deyə yalvardı. O isə istəmədi. Gedib borcunu ödəyənə qədər onu zindana saldırdı. Ağanın digər qulları baş verən hadisəni görəndə çox kədərləndilər və gedib bütün olanı ağalarına nəql etdilər. Onda ağa o qulu yanına çağırıb dedi: "Ey pis qul, bütün o borcu sənə bağışladım, çünki mənə yalvardın. Mən sənə mərhəmət etdiyim kimi sən də yoldaşına mərhəmət etməli deyildinmi?" Ağası qəzəblənib bütün borcunu ödəyənə qədər onu işgəncə verənlərə təslim etdi. Hər biriniz qardaşlarınızı ürəkdən bağışlamasanız, Səmavi Atam da sizə elə edər».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 3[cü] həftə | Çərşənbə 3cü gün

**Qanunun təkrarı kitabından sözlər** *Qanun 4, 1. 5-9*
İndi, ey İsraillilər, sizə öyrədəcəyim qaydalara və hökmlərə qulaq asın. Onlara əməl etsəniz, yaşayacaqsınız, atalarınızın Allahı Rəbbin sizə verəcəyi torpağa daxil olub oranı irs olaraq alacaqsınız. Baxın Allahım Rəbbin mənə əmr etdiyi qayda və hökmləri sizə öyrətmişəm ki, mülk olaraq almaq üçün daxil olacağınız torpaqda bunlara əməl edəsiniz. Onlara diqqətlə riayət edin. Bu, digər xalqlara nə qədər müdrik və aqil olduğunuzu göstərər. Onlar bu qaydaları eşidəndə deyəcəklər ki, bu böyük millət, həqiqətən, müdrik və aqil bir xalqdır! Allahımız Rəbb hər dəfə dua edərkən bizə yaxın olar. Axı hansı millət belə üstündür ki, Allahı ona bu cür yaxın olsun? Hansı millət belə üstündür ki, bu gün qarşınıza gətirdiyim bu Qanun kimi ədalətli qaydalara və hökmlərə malik olsun? Ancaq diqqətli olun. Gözünüzlə gördüklərinizi unutmamaq və ömür boyu yaddan çıxarmamaq üçün böyük səy göstərin. Bunları övladlarınıza, nəvələrinizə öyrədin.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 147, 12-13. 15-16. 19-20**
**N: Ey Yerusəlim, Rəbb Allahı mədh et!**
Ey Yerusəlim, Rəbbi mədh et! Ey Sion, Allahına həmd et!
Çünki darvazalarının cəftələrini bərkidər, Sənin əhalinə bərəkət verər.

Kəlamını yer üzünə yollar, Onun sözü tez yayılar.
Ağ yun kimi qar yağdırar, kül kimi qırov salar.

O, Yaqub nəslinə sözlərini, İsraillilərə qanun və hökmlərini bildirir.
Başqa millətlər üçün belə etməyib, heç birinə hökmlərini bildirməyib.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yəh 6, 63b. 68b*
Sizə söylədiyim sözlər Ruh və həyat gətirir.
Əbədi həyatın sözlərini söyləyən Sənsən.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Mt 5, 17-19*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Sanmayın ki, Mən Qanun və Peyğəmbərlərin sözlərini ləğv etmək üçün gəldim. Mən onları ləğv etmək üçün yox, yerinə yetirmək üçün gəldim. Sizə doğrusunu deyirəm: göy və yer keçib getmədən, hər şey icra olmadan Qanundan ən kiçik bir hərf və ya bir nöqtə belə, yox olmayacaq. Beləliklə, bu əmrlərdən ən kiçiyindən birini kim pozarsa və başqalarına da bu cür öyrədərsə, Səmavi Padşahlıqda ən kiçik sayılacaq. Amma kim bu əmrləri yerinə yetirər və başqalarına da öyrədərsə, Səmavi Padşahlıqda böyük sayılacaq.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 3cü həftə | Cümə axşamı 3cü gün

**Peyğəmbər Yeremyanın kitabından sözlər** *Yer 7, 23-28*

Ancaq onlara bunu əmr edib dedim: ‹Sözümə qulaq asın. Onda Mən sizin Allahınız olacağam, siz də Mənim xalqım olacaqsınız. Hər barədə sizə əmr etdiyim yolla gedin ki, uğur qazanasınız›. Ancaq Məni eşitmədilər, qulaq asmadılar. Bunun əvəzinə öz istəklərinə, pis ürəklərinin inadkarlığına görə hərəkət etdilər, irəliyə deyil, geriyə getdilər. Atalarınız Misir torpağından çıxdıqları gündən bu günə qədər Öz qullarım olan peyğəmbərləri hər gün dəfələrlə yanınıza göndərdim. Amma Məni eşitmədilər, qulaq asmadılar, inadkarlıq etdilər, atalarından da pis işlər gördülər. Sən onlara söylə: "Bu həmin xalqdır ki, öz Allahı Rəbbin sözünə qulaq asmır və cəzadan ibrət almır. Onlarda həqiqət yox oldu, həqiqətdən heç danışmırlar. Sən bütün bu sözləri onlara söyləyəcəksən, ancaq sənə qulaq asmayacaqlar, onları çağıracaqsan, ancaq sənə cavab verməyəcəklər".
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

## Zəbur 95, 1-2, 6-7a, 7b-9

**N: Rəbbin sözünə qulaq asaq, ürəklərimizi bağlamayaq.**

Gəlin Rəbbi mədh edək, bizi qurtaran Qayaya sevincdən cuşa gələrək nida edək,
şükür edərək hüzuruna gedək, cuşa gəlib ilahilərlə Ona nida edək!

Gəlin Ona səcdə edək, əyilək, bizi yaradan Rəbbin hüzurunda diz çökək.
Çünki O, Allahımızdır, biz Onun otlağının xalqıyıq, əlinin altındakı sürüsüyük.

Əgər bu gün Onun səsini eşitsəniz,
«Qoy ürəkləriniz Merivada olduğunuz kimi,
Səhradakı Massada keçən gündə olduğu kimi inadkar olmasın.
Orada atalarınız Məni sınadılar,
Əməllərimi görsələr də, Məni yoxladılar.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yoel 2, 12-13*
Rəbb belə bəyan edir: Bütün qəlbinizlə Mənə dönün.
Çünki lütfkar və rəhmli Mənəm.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Lk 11, 14-23*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa bir adamdan lal olan bir cini qovurdu. Cin çıxandan sonra lal danışmağa başladı və camaat heyrətləndi. Amma onların bəzisi deyirdi: «O, cinlərin başçısı Baal-Zevulun gücü ilə cinləri qovur». Başqaları isə İsanı sınamaq üçün istədilər ki, göydən gələn bir əlamət göstərsin. Nə düşündüklərini bilən İsa onlara dedi: «Öz daxilindən bölünmüş hər padşahlıq viran qalar və öz içindən bölünmüş ev dağılar. Əgər Şeytan da öz daxilindən bölünübsə, onun padşahlığı necə davam gətirər? Siz də deyirsiniz ki, Mən cinləri Baal-Zevulun gücü ilə qovuram. Əgər Mən cinləri Baal-Zevulun gücü ilə qovuramsa, bəs sizin adamlarınız kimin gücü ilə qovur? Buna görə də onlar sizin hakimləriniz olacaq. Lakin Mən cinləri Allahın qüdrəti_ilə qovuramsa, deməli, Allahın Padşahlığı üzərinizə gəlib. Əgər güclü bir adam təpədən-dırnağadək silahlanıb öz evini qoruyursa, onun əmlakı əmin-amanlıqdadır. Amma ondan güclüsü ona hücum edib qalib gələrsə, onda onun güvəndiyi silahları əlindən alıb talan mallarını bölüşdürər. Mənimlə olmayan Mənə qarşıdır və Mənimlə yığmayan dağıdır.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 3cü həftə | Cümə 5ci gün

**Peyğəmbər Huşənin kitabından sözlər** *Huşə 14, 1-9*

Allahın Rəbbə üz tut, ey İsrail, çünki günahlarından ötrü büdrədin.
Dua sözləri ilə Rəbbə tərəf dönün. Ona belə deyin: «Hər qəbahətimizi bağışla,
Bizi mərhəmətlə qəbul et. Buğalar yerinə ağzımızdan çıxan şükürləri təqdim edirik.
Aşşur bizi xilas etməyəcək, atların belinə minməyəcəyik, artıq əl işlərimizə
"Allahlarımız" deməyəcəyik.
Çünki yetim Səndən mərhəmət görəcək». «Onların dönüklüyünə əlac edəcəyəm,
Onları ürəkdən sevəcəyəm, çünki qəzəbim onlardan vaz keçdi.
Mən İsrailə bir şeh olacağam, o, zanbaq kimi çiçək açacaq,
Livan sidri kimi kök atacaq. Qollu-budaqlı olacaq, zeytun ağacı kimi gözəl olacaq,
Livan sidri kimi ətir saçacaq. Adamlar yenə də kölgəsi altında oturub
Buğda kimi cücərəcək, meynə kimi tumurcuqlayacaq,
şöhrəti Livan şərabı kimi olacaq. Efrayim deyəcək:
"Artıq bütlər nəyimə gərəkdir?" Mən onun səsini eşidəcəyəm, ona nəzər salacağam.
Mən həmişəyaşıl şam kimiyəm, sənin bar verməyin Məndən gələcək.
Kim müdrikdirsə, bu sözləri dərk etsin, kim dərrakəlidirsə, bunları başa düşsün.
Çünki Rəbbin yolları düzdür. Salehlər o yollarla gedir,
Ancaq üsyankarlar o yollarda büdrəyir».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 81, 5c-7a. 7b-8. 9-10. 13/16**

**N: Rəbb Allahınız Mənəm, Məni dinləyin.**

Naməlum bir səs eşitdim: «Onun çiyinlərini bu yükdən qurtarıram
Qoy əlləri bu ağır səbətdən azad olsun. Dar günündə Məni çağırdın,
Mən də səni qurtardım.

Gurlayaraq tufan içindən sənə cavab verdim, Meriva sularında səni sınadım.
Ey xalqım, dinlə, xəbərdarlıq edirəm, ey İsrail, kaş ki Məni dinləyəydin!

Aranızda özgə allah olmasın, yad allaha kimsə səcdə qılmasın.
Rəbb Allahınız Mənəm, Mən sizi Misir torpağından buraya gətirmişəm.
Ağzını yaxşı aç, doyunca yemək verirəm.

Kaş ki xalqım Mənə qulaq asaydı, İsrail nəsli Mənim yolumla gedəydi!
Sizə taxılın əlasını yedirərdim, sizi qayadan axan balla bəsləyərdim».

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Mt 4, 17*
«Tövbə edin! Çünki Səmavi Padşahlıq yaxınlaşıb».
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Mk 12, 28-34*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İlahiyyatçılardan biri gəlib onların mübahisələrinə qulaq asdı və İsanın onlara yaxşı cavab verdiyini görüb Ondan soruşdu: «Əmrlərin ən əsası hansıdır?»İsa cavab verdi: «Əmrlərin ən əsası budur: "Dinlə, ey İsrail! Allahımız Rəbb yeganə Rəbdir. Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün düşüncənlə və bütün gücünlə sev". İkincisi də budur: "Qonşunu özün kimi sev". Bunlardan böyük əmr yoxdur». İlahiyyatçı Ona dedi: «Müəllim, Sən nə yaxşı dedin, həqiqəti söylədin. Allah yeganədir, Ondan başqası yoxdur. Onu bütün qəlbinlə, bütün ağlınla_və bütün gücünlə sevmək, qonşunu da özün kimi sevmək yandırma qurbanlarının və başqa qurbanların hamısından daha vacibdir».Dərrakəli cavab verdiyini görən İsa ona dedi: «Sən Allahın Padşahlığından uzaq deyilsən». Bundan sonra heç kim İsadan bir şey soruşmağa cəsarət etmədi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 3cü həftə | Şənbə 6cı gün

**Peyğəmbər Huşənin kitabından sözlər** *Huşə 6,1-6*
Gəlin Rəbbə qayıdaq. O bizi parçaladı, O da bizə şəfa verəcək.
O bizi yaraladı, O da yaramızı sarıyacaq. İki gün sonra bizi dirildəcək,
Üçüncü gün ayağa qaldıracaq, Onun hüzurunda yaşayacağıq.
Gəlin Rəbbi tanıyaq, tanımağa səy edək. O hökmən dan yeri kimi doğacaq,
Yağış kimi, torpağı sulayan yaz yağışı kimi yanımıza gələcək».
Allah deyir: «Ey Efrayim, sənə nə edim? Ey Yəhuda, bəs sənə nə edim?
Çünki məhəbbətiniz səhər dumanı, erkən uçub gedən şeh kimidir.
Buna görə də sizi peyğəmbərlər vasitəsilə parçaladım,
Ağzımdan çıxan sözlərlə öldürdüm. sizin üzərinizdə hökmüm
Şimşək kimi parıldayır. Çünki Mən qurban deyil, məhəbbət istəyirəm.
Yandırma qurbanlarından çox, Allahı tanımağınızı istəyirəm.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 51, 1-2, 16-17. 18-19**
**N:Rəbbim, təqsirlərimizi yu.**
Məhəbbətinə görə, ey Allah, mənə rəhm et,
Bol mərhəmətinə görə qanunsuzluqlarımı sil.
Təqsirimi tamamilə yu, günahımdan məni təmizlə.

Sən qurbanlardan zövq almazsan, yoxsa kəsərdim.
Yandırma qurbanlarından razı qalmazsan,
Allaha məqbul olan qurban sınmış ruhdur,
Sən sınan və peşman olan ürəyə xor baxmazsan, ey Allah!

Lütfünlə Siona yaxşılıq et, Yerusəlimin divarlarını bərpa et.
Onda doğru yolla təqdim edilən qurbanlardan,
Bütöv yandırma qurbanlarından zövq alarsan.
O zaman qurbangahında buğalar qurban kəsilər.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Zəb 95, 8*
Qoy ürəkləriniz inadkar olmasın, Rəbbin səsini eşidin.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Lk 18, 9-14*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Özlərinin saleh olduğuna güvənib başqalarına xor baxan bəziləri üçün də İsa belə bir məsəl çəkdi:«Biri farisey, digəri isə vergiyığan olan iki nəfər dua etmək üçün məbədə girdi. Farisey ayaq üstə durub öz-özünə belə dua edirdi: "Ya Allah, Sənə şükürlər olsun ki, mən başqaları kimi soyğunçu, haqsız, zinakar ya da bu vergiyığan kimi deyiləm. Həftədə iki dəfə oruc tuturam, bütün qazandığımın onda birini verirəm".Vergiyığan isə uzaqda durub gözlərini göyə qaldırmağa belə, cəsarət etmirdi, amma sinəsinə vurub hey deyirdi: "Ya Allah! Mən günahkara rəhm et!" Sizə deyirəm ki, o farisey yox, vergiyığan evinə saleh sayılaraq getdi. Çünki özünü yüksəldən hər kəs aşağı tutulacaq, özünü aşağı tutansa yüksəldiləcək».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 4cü həftə | Bazar ertəsi 1ci gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 65, 17-21*

Budur, Mən yeni göylər və yeni yer yaradıram. Əvvəlki işlər bir daha
xatırlanmayacaq, Heç yada düşməyəcək. Yaratdığımla əbədilik sevinin, şadlanın.
Çünki sevinc üçün yeni Yerusəlimi, sakinlərini xoşbəxtlik üçün yaradacağam.
Mən Yerusəlim üçün sevinəcəyəm, xalqım üçün şadlanacağam.
Orada nə ağlaşma, nə fəryad səsi bir daha eşidilməyəcək.
Uşaqlar artıq körpə çağlarında ölməyəcək, uzun ömür sürməyən qoca olmayacaq,
Yüz yaşında ölənlər cavan sayılacaq, yüz yaşına çatmayanlar lənətli sayılacaq.
Onlar evlər tikib orada məskunlaşacaq,
Üzüm bağları salacaq, bəhrələrindən yeyəcək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 30, 1/3. 4-5. 10-11/12c**

**N: Rəbbi mədh edirəm, məni qurtardı.**

Ya Rəbb, Səni ucaldıram, çünki Sən məni qurtardın,
Düşməni mənə görə sevinməyə qoymadın.
Ya Rəbb, canımı ölülər diyarından azad etdin,
Qəbirə düşməyim deyə Sən mənə həyat verdin.

Ey Rəbbin möminləri, Onu tərənnüm edin,
Onun müqəddəs isminə şükür edin.
Çünki qəzəbi bir anlıq olur, lütfü isə ömür boyu qalır.
Kimin bir gecə gözündən yaş tökülərsə,
Onun üçün sübh tezdən sevinc doğar.

Ya Rəbb, dinlə, mənə lütf et, ya Rəbb, köməyimə çat».
Yasımı şənliyə çevirdin, çulumu çıxarıb məni sevincə bürüdün.
Sənə daim şükür edəcəyəm!

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Amos 5,14*

Pislikdən yaxşılığa dönün ki, sağ qalasınız!
Beləcə Rəbb, sizə yar olacaq.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Yəh 4, 43-54*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

İsa iki gündən sonra oranı tərk edib Qalileyaya tərəf yola düşdü. Çünki peyğəmbərin öz yurdunda hörməti olmadığı barədə İsa Özü bir vaxt şəhadət etmişdi. İndi Qalileyaya gələndə Qalileyalılar Onu qəbul etdi, çünki onlar da bayram zamanı Yerusəlimə gəlib Onun orada etdiyi hər şeyi görmüşdülər. Beləcə İsa suyu şəraba çevirdiyi Qalileyanın Qana kəndinə yenə gəldi. Kefernahumda hökmdarın bir məmuru var idi. Onun oğlu xəstələnmişdi. O, İsanın Yəhudeyadan Qalileyaya gəldiyini eşidib yanına getdi və Ondan xahiş etdi ki, gəlib oğlunu sağaltsın, çünki oğlu ölüm ayağında idi. Onda İsa ona dedi: «Siz əlamətlər və xariqələr görməyincə iman etməyəcəksiniz». Hökmdarın məmuru Ona dedi: «Ağa, uşağım ölməzdən qabaq gəl!» İsa ona «get, oğlun sağ-salamatdır» dedi. O adam da İsanın sözünə inanıb getdi. Evə gələrkən qulları onu qarşılayaraq oğlunun sağ-salamat olduğunu söylədilər. Oğlunun nə vaxt yaxşılaşdığını qullarından soruşdu, onlar da dedilər: «Dünən yeddinci saatda qızdırması düşdü». O zaman ata başa düşdü ki, İsa elə həmin vaxt ona «oğlun sağ-salamatdır» demişdi. Onda özü də, bütün ev əhli də İsaya iman etdi. Bu, İsanın göstərdiyi ikinci əlamət idi. Onu Yəhudeyadan Qalileyaya gələndə etmişdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 4cü həftə | Çərşənbə axşamı 2ci gün

**Peyğəmbər Yezekelin kitabından sözlər** *Yez 47, 1-9.12*

O adam yenə məni məbədin girişinə gətirdi. Məbədin kandarının altından şərqə tərəf sular axdığını gördüm. Məbəd şərqə baxırdı. Sular məbədin cənub tərəfinin altından, qurbangahın cənubundan aşağıya axırdı. O məni oradan – şimal darvazasından çıxarıb bayır yoldan şərqə baxan bayır darvazasına apardı.
Sular cənub tərəfdən axırdı. O adam əlində ölçmək üçün bir iplə şərqə tərəf getdi. O, min qulac ölçdü və məni topuğa qədər çıxan suların içinə gətirdi. Daha min qulac ölçdü və məni dizə qədər çıxan suların içinə gətirdi. Yenə min qulac ölçdü və məni belə qədər çıxan suların içinə gətirdi. Daha min qulac ölçdü və sular keçilməz bir çaya döndü. Sular artmışdı, içindən piyada keçmək mümkün deyildi, adam üzən qədər dərin bir çaya çevrilmişdi. O adam mənə dedi:
«Ey bəşər oğlu, bunu görürsənmi?» Sonra məni götürüb yenə çayın sahilinə gətirdi. Oraya çatanda çayın hər iki sahilində çoxlu ağac gördüm. O adam mənə dedi:
«Bu sular şərq bölgəsinə tərəf axır, oradan Arava vadisinə, sonra isə Duz dənizinə tökülür. Dənizə tökülən kimi oradakı su şirin suya çevriləcək. O zaman çayın axdığı yerlərdə hər cür qaynaşan canlı məxluq yaşayacaq, çoxlu balıq olacaq, çünki bu sular oraya axır, oradakı şor suyu şirin suya çevirir. Çay axdığı hər yerə həyat gətirəcək. Çayın hər iki sahilində hər cür meyvə ağacı yetişəcək. Onların yarpaqları solmayacaq, meyvələri tükənməyəcək. Hər ay meyvə verəcəklər, çünki Müqəddəs məkandan çıxan sular oraya axır. Meyvələrindən yemək, yarpaqlarından şəfa vermək üçün istifadə olunacaq».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 46, 1-2. 4-5. 7-8**

**N: Rəbb bizimlədir. Bizim qalamızdır.**

Allah bizə sığınacaqdır, qüvvətdir, dar gündə çox kömək edir.
Buna görə biz qorxmuruq: Yer üzü alt-üst olsa belə,
Dağlar uçub dənizin köksünə aşsa belə.

Bir çay var ki suları Allahın şəhərinə axır,
Haqq-Taalanın müqəddəs məskəninə sevinc gətirir.
Allah bu şəhərin mərkəzində sarsılmaz durub,
Ona dan yeri söküləndə yardım edər

Ordular Rəbbi bizimlədir! Yaqubun Allahı qalamızdır!
Gəlin, görün Rəbbin işlərini, dünyada etdiyi viranəliyi.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Zəb 51, 10a. 12a*
Ey Allah, məndə təmiz ürək yarat, Xilasının sevincini mənə qaytar.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Yəh 5, 1-3a. 5-16*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Bu hadisələrdən sonra Yəhudilərin bir bayramı oldu və İsa Yerusəlimə getdi. Yerusəlimdəki Qoyun darvazasının yanında, ibranicə Bet-Xasda adlanan beş eyvanlı bir hovuz var. Bu eyvanlarda çoxlu xəstə, kor, topal və iflic adam yatardı. Otuz səkkiz il xəstə olan bir adam da orada idi. İsa onun yatdığını görəndə çoxdan xəstə olduğunu bilərək ondan soruşdu: «Sağalmaq istəyirsənmi?» Xəstə Ona cavab verdi: «Ağa, yanımda bir adam yoxdur ki, su çalxalanan zaman məni hovuza salsın. Mən çatınca başqası məndən əvvəl oraya enir». İsa ona dedi: «Qalx, döşəyini götür və yeri!» O adam həmin anda sağaldı və döşəyini götürüb yeridi. O gün Şənbə günü idi. Buna görə də Yəhudi başçıları şəfa tapan adama dedilər: «Bu gün Şənbə günüdür, döşəyini daşımaq sənə qadağandır». O adam onlara cavab verdi: «Məni sağaldan Şəxs mənə "döşəyini götür və yeri" dedi». Ondan soruşdular: «Sənə "götür və yeri" deyən Adam kimdir?» Lakin sağalan adam Onun kim olduğunu bilmirdi, çünki İsa o yerdə olan izdihama qarışmışdı. Bir az sonra İsa məbəddə həmin adamı tapıb dedi: «Bax sən sağaldın, bir də günah etmə ki, başına daha pis iş gəlməsin». O adam gedib onu sağaldan Şəxsin İsa olduğunu Yəhudi başçılarına bildirdi. Buna görə Yəhudi başçıları İsanı təqib etməyə başladılar, çünki bunları Şənbə günü edirdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 4cü həftə | Çərşənbə 3cü gün

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 49, 8-15*

Rəbb belə deyir: «Münasib vaxtda sənə cavab verdim, xilas günü sənə kömək etdim.
Səni hifz edəcəyəm. Səni xalqım üçün əhd edəcəyəm ki,
Dağılmış ölkəni bərpa edəsən, irs olaraq yenə sahiblərinə verəsən.
Dustaqlara "çıxın", zülmətdə oturanlara "Özünüzü göstərin!" deyəsən.
Onlar yol boyunca quzu kimi bəslənəcək, hər çılpaq təpədə otlaq tapacaq.
Onlar nə ac, nə də susuz qalacaq,
Qızmar isti və günəş onları vurmayacaq. Çünki onlara mərhəmət edən yol göstərəcək, onları bulaqlara doğru yönəldəcək. Mən bütün dağlarımı yola döndərəcəyəm, yollarımı hamar edəcəyəm. Budur, xalqım uzaq yerlərdən,
Kimisi şimaldan, kimisi qərbdən, kimisi isə Sinim ölkəsindən gələcək».
Tərənnüm edin, ey göylər, ey yer üzü, fərəhlən! Ey dağlar, sevinc nidalarına qoşulun! Çünki Rəbb xalqına təsəlli verəcək, iztirab çəkənlərinə rəhm edəcək.
Amma Sion dedi: «Rəbb məni tərk etdi, Xudavəndim məni unutdu».
Rəbb isə deyir: «Ana südəmər körpəsini heç unudarmı?
Bətnindən çıxan oğluna rəhm etməzmi? Ana öz körpəsini unutsa belə,
Mən səni əsla unutmaram.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 145, 8-9. 13-14. 17-18**

**N: Rəbb lütfkar və rəhmlidir, hədsiz səbirlidir**

Rəbb lütfkar və rəhmlidir, hədsiz səbirli və bol məhəbbətlidir.
Rəbb hamıya xeyirxahlıq edər, yaratdıqlarının hər birinə mərhəmət göstərər.

Sənin padşahlığın əbədi padşahlıqdır, Səltənətin nəsildən-nəslə qədər uzanır.
Rəbb yıxılanların hamısına dayaqdır, qəddi əyilənlərin hamısını qaldırır.

Rəbb bütün yollarında adildir, hər işində sadiqdir.
Rəbb Onu çağıran bütün insanlara,
Onu sidq ürəkdən çağıran bütün insanlara yaxındır.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yəh 11, 25a.26*

İsa ona dedi: «Dirilmə və həyat Mənəm. Mənə iman edən heç vaxt ölməz.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Yəh 5, 17-30*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Lakin İsa onlara dedi: «Mənim Atam indiyə qədər iş görür,
Mən də iş görürəm». Bundan sonra Yəhudi başçıları daha da səylə Onu
öldürməyə çalışırdılar, çünki İsa yalnız Şənbə gününü pozmadı,
həm də Allahın Öz Atası olduğunu söyləyərək Özünü Allaha bərabər saydı.
Beləcə İsa onlara dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm: Oğul Atanın nə etdiyini görməsə, Özündən bir şey etməz. Çünki Ata nə edərsə, Oğul da onu edər. Ona görə ki Ata Oğulu sevir və Özünün etdiyi hər şeyi Ona göstərir. Ona bunlardan da böyük işlər göstərəcək ki, siz heyrətlənəsiniz. Ata ölüləri dirildib onlara həyat verdiyi kimi Oğul da istədiyi şəxslərə həyat verir. Ata heç kəsi mühakimə etmir, lakin hökm çıxarmağı Oğulun ixtiyarına verib ki, hər kəs Ataya hörmət etdiyi kimi Oğula da hörmət etsin. Oğula hörmət etməyən Onu göndərən Ataya da hörmət etmir. Doğrusunu, doğrusunu sizə deyirəm: Mənim sözümə qulaq asıb Məni Göndərənə inanan şəxs əbədi həyata malikdir və ona hökm çıxarılmayacaq, əksinə, ölümdən həyata keçib. Doğrusunu, doğrusunu sizə deyirəm: Allah Oğlunun səsini ölülərin eşitdiyi zaman gəlir və artıq gəlib; bunu eşidənlər yaşayacaq. Çünki Atanın Özündə həyat olduğu kimi Oğula da Özündə həyat olmağı bəxş etdi. Hökm çıxarmaq səlahiyyətini də Ona verdi, çünki O, Bəşər Oğludur. Buna heyrət etməyin, çünki elə bir zaman gəlir ki, qəbirdə yatanların hamısı Onun səsini eşidib qəbirlərindən çıxacaq, yaxşılıq edənlər həyat üçün diriləcək, pislik edənlərsə hökm üçün diriləcək. Mən Özümdən heç nə edə bilmərəm, eşitdiyim kimi mühakimə edərəm və Mənim verdiyim hökm ədalətlidir. Çünki məqsədim Öz iradəmi deyil, Məni Göndərənin iradəsini yerinə yetirməkdir.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 4cü həftə | Cümə axşamı 4ci gün

**Çıxış kitabından sözlər** *Çıx 32, 7-14*

Rəbb Musaya dedi: «Tez ol, düş aşağı, çünki Misirdən gətirdiyin xalqın öz əxlaqını pozdu və Mən onlara əmr etdiyim yoldan yaman tez döndü. Özləri üçün tökmə dana düzəldib ona səcdə qıldılar, qurban kəsdilər və dedilər: "Ey İsrail övladları, budur sizi Misir torpağından çıxaran allahlarınız!"» Rəbb Musaya sözünü davam etdi: «Görürəm ki, bu xalq dikbaş xalqdır. Qoy Mən xalqa qarşı qəzəblənib onu yox edim, səndən isə böyük millət əmələ gətirim». Musa Allahı Rəbbə yalvarıb dedi: «Ya Rəbb, nə üçün Öz xalqına qarşı qəzəbin alovlansın? Sən onları Misirdən böyük qüvvətinlə və qüdrətli əlinlə qurtarmadınmı? Axı nə üçün Misirlilər "Onları pis niyyətlə, dağlarda öldürüb yer üzündən yox etmək üçün çıxartdı" desinlər? Yalvarıram, qəzəbini yatır və Öz xalqına bəla gətirmək niyyətindən dön. Qulların İbrahimi, İshaqı, və İsraili xatırla və Özün naminə onlara and edərək "nəslinizi göydəki ulduzlar qədər çoxaldacağam, vəd etdiyim bu ölkənin hamısını nəslinizə verəcəyəm və onlar əbədilik oraya sahib olacaqlar" dedin».
Beləliklə, Rəbb Öz xalqına bəla gətirmək niyyətindən döndü.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 106, 19-20. 21-22. 23**

**N: Rəbbim, mərhəmətin xatirinə bizi xatırla.**

Xorevdə bir dana heykəli düzəltdilər, tökmə bir bütə səcdə etdilər.
Allahın əvəzinə otyeyən buğanın surətinə şərəf verdilər.

Onları qurtaran Allahı – Misirdə böyük möcüzələr yaradanı,
Ham ölkəsində xariqələr göstərəni, Qırmızı dənizdə zəhmli işlər görəni unutdular.

Rəbb onları yox etmək üçün niyyətini söylədi,
Onu məhvedici qəzəbindən döndərmək üçün seçdiyi Musa Onun qarşısına gəldi.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yəh 3,16*

Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi ki,
Ona iman edən hər kəs əbədi həyata malik olsun.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Yəh 5, 31-47*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Əgər Mən Özüm barədə şəhadət etsəydim, şəhadətim etibarlı olmazdı. Lakin Mənim barəmdə şəhadət edən başqasıdır və Mənim barəmdə etdiyi şəhadətin etibarlı olduğunu bilirəm. Siz Yəhyanın yanına adamlar göndərdiniz və o, həqiqətə şəhadət etdi. Lakin insandan şəhadət qəbul etdiyim üçün deyil, yalnız sizin xilas olmağınız üçün bunları söyləyirəm. Yəhya yanan və nur saçan bir çıraq idi, siz bir müddət onun işığında sevinmək istədiniz. Amma Mənim barəmdə olan şəhadət Yəhyanın şəhadətindən üstündür. Çünki Atanın Mənə tam yerinə yetirmək üçün tapşırdığı işlər – indi etdiyim bu işlər Mənim barəmdə şəhadət edir ki, Ata Məni göndərib. Məni göndərən Atanın Özü də Mənim barəmdə şəhadət etdi. Siz heç vaxt nə Onun səsini eşitmisiniz, nə də surətini görmüsünüz. Onun kəlamının da sizdə qalmasına imkan vermirsiniz, çünki Onun göndərdiyi Şəxsə inanmırsınız. Siz Müqəddəs Yazıları araşdırırsınız. Çünki düşünürsünüz ki, onların vasitəsilə əbədi həyata malik olacaqsınız. Lakin onlar da Mənim barəmdə şəhadət edir, sizsə həyata malik olmaq üçün Mənə tərəf gəlmək istəmirsiniz. İnsanlardan izzət qəbul etmirəm. Ancaq sizi tanıyıb bilirəm ki, ürəyinizdə Allah məhəbbəti yoxdur. Mən Atamın adı ilə gəlmişəm, amma siz Məni qəbul etmirsiniz. Əgər bir başqası öz adı ilə gəlsə, onu qəbul edərsiniz. Siz bir-birinizdən izzət qəbul edirsiniz, bir olan Allahdan gələn izzəti isə axtarmırsınız. Bəs onda necə iman edə bilərsiniz? Güman etməyin ki, Mən sizi Atanın önündə ittiham edəcəyəm. Sizi ittiham edən ümid bağladığınız Musadır. Əgər siz Musaya inansaydınız, Mənə də inanardınız, çünki o Mənim barəmdə yazıb. Lakin onun yazdıqlarına inanmırsınızsa, Mənim sözlərimə necə inanacaqsınız?»

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 4cü həftə | Cümə 5ci gün

**Müdrikliyin kitabından sözlər** *Müd 2,1a. 12-22*

Yanlış fikrə düşənlər öz-özlərinə dedilər: Ədalətli adama tələ quracağıq,
Çünki o, bizə ağır yükdür, bizim işlərimizə əngəl olur, bizi qanuna qarşı günahda təqsirləndirir, tərbiyə əleyhinə olan günahlara görə ittiham edir.
Özünün Allah barədə biliyə sahib olduğunu iddia edir, özünü Rəbbin övladı adlandırır.
Önümüzdə durub niyyətlərimizi ifşa edir. Onun üzünü görmək belə, bizə ağırdır,
Çünki onun həyatı başqalarınınkına bənzəmir, yolları da hamıdan fərqlidir.
O, bizi iyrənc hesab edir, çirkabdan qaçan kimi bizim yollarımızdan uzaqlaşır,
Ədalətli adamların öləndə bəxtiyar olacağını bildirir, məğrurluqla Allahı öz atası adlandırır. Onun sözlərinin doğru olub-olmadığını görərik, onun axırının necə olacağına baxarıq. Əgər bu ədalətli adam Allahın oğludursa, onda Allah onu qoruyar, düşmənlərin əlindən xilas edər. İtaətkarlığını bilmək və kin saxlamadığını görməkdən ötrü onu təhqirlərlə və əzab-əziyyətlərlə yoxlayaq; onu şərəfsiz ölümə məhkum edək,
Çünki, dediyinə görə, onun qayğısına qalınacaq».
Onlar yanlış düşüncələrə qapılıb səhv etdilər, çünki pislikləri onları kor etdi.
Onlar Allahın sirlərini dərk etmədilər, müqəddəsliyə görə verilən əvəzi gözləmədilər, qüsursuz insanların mükafatını layiqli saymadılar.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 34, 16-17. 18-19. 20/22**

**N: Rəbb qəlbisınıqlara yaxındır.**

Rəbbin üzü şər iş görənlərə qarşıdır, Yer üzündə onlardan nişanə qoymayacaq.
Salehlər fəryad çəkəndə Rəbb eşidir, onları bütün əzablarından azad edir.

Rəbb qəlbisınıqlara yaxındır, O, ruhən əzilmişləri qurtarır.
Salehlər çox bəlaya düçar olar, lakin Rəbb onları hər birindən qurtarır.

Rəbb onların hər bir sümüyünü qoruyur, heç biri zədələnməz.
Rəbb qullarının canını azad edir, Rəbbə pənah gətirən məhkum olmur.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Mt 4,4b*

İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar .
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Yəh 7, 1-2. 10. 25-30*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Bu hadisələrdən sonra İsa yalnız Qalileyada gəzirdi. Yəhudi başçılarının Onu öldürməyə çalışdıqlarına görə daha Yəhudeyada gəzmək istəmirdi. Yəhudilərin Çardaqlar bayramı yaxınlaşırdı. Ancaq Onun qardaşları bayrama gedəndən sonra O da açıq yox, gizlicə bayrama getdi. Onda Yerusəlimlilərin bəzisi dedi: «Öldürməyə çalışdıqları Bu deyilmi? Budur, O açıq danışır, amma Ona bir söz demirlər. Bəlkə rəhbərlər, doğrudan da, Onun Məsih olduğunu öyrəndilər? Ancaq bu adamın haradan olduğunu bilirik, halbuki Məsih gələndə Onun haradan olduğunu heç kəs bilməyəcək». İsa məbəddə təlim öyrədərkən nida edib dedi: «Doğrudan da, Məni tanıyırsınızmı, haradan gəldiyimi bilirsinizmi? Mən Özümdən gəlmədim, lakin Məni Göndərən haqdır. Siz Onu tanımırsınız, Mənsə Onu tanıyıram, çünki Ondan gəlmişəm və O Məni göndərdi». Bu sözlərə görə İsanı tutmağa çalışdılar, lakin heç kəs Ona toxunmadı, çünki vaxtı hələ çatmamışdı.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 4cü həftə | Şənbə 6cı gün

**Peyğəmbər Yeremyanın kitabından sözlər** *Yer 11, 18-20*

O vaxt Rəbb onların etdiklərini mənə göstərdi. O bunu mənə aşkar etdi, mən də xəbərdar oldum. Mənsə kəsilməyə aparılan müti quzu kimi idim, bilmirdim ki, onlar «ağacı və meyvəsini məhv edək, onu dirilər arasından yox edək ki, adı bir daha xatırlanmasın» deyərək mənə qəsd qururlar. Ancaq, ey Ordular Rəbbi, ürəkləri və fikirləri sınayan ədalətli Hakim, mənə imkan ver ki, onlardan alacağın qisasını görüm! Çünki mən öz işimi Sənə tapşırdım.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 7, 1-2. 8bc-9. 10-11**

**N: Ey Rəbb Allahım, Sən mənim ümidimsən.**

Ey Rəbb Allahım, Sənə sığınmışam,
Məni bütün təqibçilərimdən qurtar, məni xilas et.
Yoxsa aslan kimi məni parçalayarlar, xilas edən olmasa, məni didib-dağıdarlar.

Məni mühakimə et, ya Rəbb, salehliyimə, kamilliyimə görə mənə haqq qazandır!
Pislərin pisliyi sona yetsin, salehlərsə möhkəmlənsin!
Ey adil Allah, çünki Sən düşüncələri, hissləri bilirsən.

Allah mənim sipərimdir, ürəyidüz olanları xilas edir.
Allah adil hakimdir, hər gün haqsızlığa görə hökm verir.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yəh 3,16*
Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Yəh 7, 40-53*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Xalqın bir qismi bu sözləri eşidəndə «Bu, doğrudan da, gəlməli olan peyğəmbərdir» dedilər. Başqaları isə «Bu, Məsihdir» söylədi, ancaq bəziləri dedi: «Nə? Məsih Qalileyadanmı gəlir? Məgər Müqəddəs Yazılarda deyilmir ki, Məsih Davudun nəslindən, Davudun yaşadığı Bet-Lexem kəndindən gəlir?» Beləcə İsa barədə xalq arasında fikir ayrılığı oldu. Bəziləri Onu tutmaq istədi, amma heç kəs Ona toxunmadı. Buna görə də mühafizəçilər başçı kahinlərin və fariseylərin yanına qayıtdılar. Onlar mühafizəçilərdən «Niyə Onu gətirmədiniz?» deyə soruşdu. Mühafizəçilər cavab verdilər: «Hələ indiyəcən heç bir insan belə danışmayıb». Fariseylər onlara dedilər: «Yoxsa sizi də aldadıb? Gör bir rəhbər yaxud bir farisey Ona iman etdimi? Bu Qanunu bilməyən xalqa gəlincə, onlar lənətə gəlib!» Aralarından biri – bundan qabaq İsanın yanına gələn Nikodim onlara dedi: «Qanunumuza görə, bir adama qulaq asmadan və nə etdiyini bilmədən onu mühakimə etmək doğrudurmu?» Onlar Nikodimə dedi: «Bəlkə sən də Qalileyadansan? Araşdırsan, görərsən ki, Qalileyadan peyğəmbər çıxmaz».Bundan sonra hər kəs öz evinə getdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 5ci həftə | Bazar ertəsi 1ci gün

**Daniel peyğəmbərin kitabından sözlər** *Dan 13, 1-9. 15-17. 19-30. 33-62*

*(uzun variant burda başlayır)*

(Babildə Yoakim adında bir kişi yaşayırdı. Bu adam Xilkiyanın Susanna adlı qızı ilə evlənmişdi. Susanna çox gözəl və mömin qadın idi.Onun valideynləri saleh Yəhudilərdən idi və öz qızlarına Musanın qanununu öyrətmişdilər.Yoakim çox varlı adam idi və onun evinin ətrafında çox gözəl bağı var idi. Yəhudilər tez-tez orada toplanırdılar, çünki hamı Yoakimə hörmət edirdi. Bir-biri ilə mübahisəsi olanlar Yoakimin evinə gedirdilər, çünki həmin ildə xalq arasından çıxan iki hakim orada hakimlik edirdi. Rəbb belələri barədə demişdi ki, günah Babildə xalqı idarə etmək üçün təyin olunan hakimlərdən çıxdı. Günorta vaxtı xalq çıxıb gedəndə Susanna ərinin bağına gəzməyə çıxardı. Hər dəfə bağa gələn və orada gəzişən Susannanı o iki hakim görürdü və onlarda ona qarşı şəhvət hissi oyandı. Onlar ikisi də göylərə baxmayaraq (dua etməyərək) və ədalətli hökmləri yada salmayaraq ağıllarını itirdilər. Belə oldu ki, onlar əlverişli fürsəti gözlədilər. Bir dəfə Susanna hər gün olduğu kimi, iki xidmətçi qızla bağa girdi və bağda çimmək istədi, çünki çox isti idi. Gizlənib Susannanı güdən iki hakimdən başqa bağda heç kim yox idi. Susanna xidmətçilərinə belə dedi: «Mənə ətirli yağ və sabun gətirin, bağın qapılarını bağlayın ki, rahat çimə bilim». Xidmətçilər çıxan kimi iki hakim gizləndikləri yerdən çıxıb cəld Susannanın yanına gəldilər və belə dedilər: «Budur, bağın qapıları kilidlənib, bizi heç kim görmür. Səninlə yatmaq istəyirik, buna görə bizimlə razılaş və istədiyimizi bizə ver. Əgər istədiyimizi bizə verməsən, onda gənc bir adamla tək qalmaq üçün xidmətçilərini uzaqlaşdırdığını söyləyib sənə qarşı şahidlik edəcəyik». Susanna inləyərək belə söylədi: «Mən hər tərəfdən sıxışdırılmışam; çünki sizə təslim olsam, zina etdiyimə görə ölümə məhkum olunaram. Sizi rədd edərəmsə, sizin əlinizə düşərəm. Rəbbə qarşı günah işlətməkdənsə, sizin əlinizə düşməyə üstünlük verirəm». Bunu deyib Susanna var gücü ilə qışqırdı; iki hakim də onun əleyhinə bağırmağa başladılar. Bu kişilərdən biri qaçıb bağın qapılarını açdı. Evdəki xidmətçilər bağdakı səs-küyü eşidib Susannaya nə olduğunu görmək üçün yan qapılardan bağa atıldılar. Hakimlər öz sözlərini deyəndə Susannanın xidmətçiləri çox utandılar, çünki Susanna haqqında bu günə qədər heç vaxt belə şeylər deyilməmişdi. Ertəsi gün xalq onun əri Yoakimin evinə toplandı. Onu ölümə məhkum etmək üçün Susannaya qarşı mənfur planlarını tətbiq etmək niyyətində olan iki hakim də oraya gəldi. Onlar xalq qarşısında belə dedilər: «Xilkiyanın qızı, Yoakimin arvadı Susannanı gətirin». Onu çağıranda Susanna anası, atası, uşaqları və bütün qohum-əqrəbaları ilə birlikdə gəldi. Susannanın ailəsi və orada olan hər bir kəs ağlayırdı. Amma iki hakim xalqın önündə ayağa qalxdı, əllərini Susannanın başına qoyub onu təqsirləndirməyə başladılar. Susanna isə göz yaşları içərisində gözlərini göylərə dikmişdi, çünki o, Rəbbə ümid edirdi. Bu iki hakim dedi: «Biz bağçada gəzirdik, bu qadın da iki xidmətçisi ilə gəldi və bağın əsas qapılarını bağlayıb xidmətçilərinə getmələrini əmr etdi. Sonra bağda gizlənən gənc bir adam ona yaxınlaşdı və onunla yatdı. Biz bağın bir tərəfində idik və bu qanunsuzluğu görəndə onları yaxaladıq. Onları cinsi əlaqədə olan yerdə yaxaladıq. O adamı tuta bilmədik, çünki o, bizdən güclü idi, qapıları açdı və qaçdı.
Amma qadını yaxaladıq və onu dindirdik, o isə bizə cavab vermək istəmədi.
Doğru şahidlik etdiyimizə and içirik».)

*(qısa variant burda başlayır, uzun variant isə oxumağa davam edir)*
Bu iki adam həm xalqın başçıları, həm də hakim olduqlarına görə xalq onların sözlərinə inandı və Susannanı ölümə məhkum etdi. Susanna yüksək səslə fəryad etdi və dedi: «Ey əbədi Var Olan Allah, Səndən heç bir şey gizli deyil, Sən bütün olacaq şeyləri əvvəlcədən bilirsən. Bu adamların mənə qarşı yalan söylədiklərini bilirsən, budur, mən heç bir günah etmədən, bu adamların pis niyyətlərinə görə ölməliyəm». Rəbb Susannanın səsini eşitdi. Susanna ölümə məhkum edilmək üçün aparılanda Allah Daniel adlı gəncin ruhunu oyatdı və o, yüksək səslə bağırdı: «Onun ölümünə səbəb olanlardan biri olmaqdan imtina edirəm!» Onda bütün xalq ona tərəf döndü və dedi: «Dediyin bu söz nədir?» Onda Daniel onların qarşısında ayağa qalxıb belə söylədi: «Siz belə düşüncəsizsinizmi, ey İsrail nəsli, həqiqəti araşdırmadan və həqiqəti bilmədən İsrailin qızını məhkum edəcəksiniz? Məhkəməyə bir də baxın, çünki bu adamlar ona qarşı yalan şahidlik etmişdilər». Hamı geri qayıtdı və rəislik edən adamlar Danielə belə dedilər: «Bizim yanımızda otur və bizə demək istədiklərini açıqla, çünki Allah sənə hakimlik verib». Daniel onlara belə dedi: «Bu iki hakimi bir-birindən ayırın və mən onları ayrı-ayrı dindirəcəyəm». Onları bir-birindən ayırandan sonra Daniel birinci hakimi çağırdı və ona belə dedi: «Pislikdə qartlamış qoca, indi əvvəllər etdiyin bütün günahların aşkar oldu. Günahsızları məhkum edərək və günahkarlara bəraət verərək adil olmayan qərarlar çıxarırdın. Amma Rəbb "təqsirsizi və günahsızı öldürmə" deyib. Belə olan halda, əgər sən onların əxlaqsızlıq etdiyini görmüsənsə, onda de görüm, onları hansı ağacın altında görmüsən?» O dedi: «Saqqız ağacının altında». Daniel dedi: «Düzdür! Bu yalanının cəzasını çəkəcəksən; budur, səni şaqqalamaq (ikiyə bölmək) üçün Allahın mələyinə Allah tərəfindən əmr verildi». Birinci hakim oradan uzaqlaşdırılandan sonra ikincisini Danielin yanına gətirdilər və Daniel ona dedi: «Yəhudidən çox Kənanlıya oxşayırsan. Bu qadının gözəlliyi səni yoldan çıxartdı və düşüncələrini şəhvət pozdu. İsrailin qadınları səndən qorxduqları üçün onlarla istədiyini etməyə vərdiş etdin; amma Yəhudi qızı pislikdə səninlə ortaq olmaz. İndi mənə de görüm, onları hansı ağacın altında gördün?» İkinci hakim belə cavab verdi: «Palıd ağacının altında». Daniel dedi: «Düzdür! Bu yalanının cəzasını həyatınla ödəyəcəksən, çünki Allahın mələyi səni ikiyə bölmək üçün əlində qılınc hazır durub. Beləcə ikinizdən də qurtulacağıq». Bundan sonra bütün toplananlar uca səslə Ona ümid bağlayanları xilas edən Allahı alqışladılar.
Hamı bu iki hakimə qarşı çıxdı, çünki Daniel onların ağzından çıxan yalanı ifşa etdi. Musanın qanununa görə öz yaxınına qarşı yalan şahidlik edənlərə edilən cəza ilə onları cəzalandırdılar. Beləcə iki hakim ölümə məhkum edildi və günahsız qadın xilas oldu. Susannanın atası və anası, əri və bütün qohum-əqrəbası Allahı izzətləndirdilər, çünki onda utanmalı heç bir şey aşkara çıxmamışdı.
O gündən etibarən Daniel insanlar qarşısında böyük nüfuz qazandı.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 23, 1-2a. 2b-3. 4. 5. 6.**

**N: Şərdən qorxmaram, çünki Rəbb mənimlədir.**

Rəbb mənim çobanımdır, möhtac olmaram.
O, məni yaşıl çəmənlərdə dincəldir,

Sakit axan sular kənarında gəzdirir. Məni yenə də canlandırır,
İsmi şərəfinə salehlik yolları ilə aparır.

Ölüm kölgəsinin dərəsində gəzsəm belə,
Şərdən qorxmaram, çünki Sən mənimləsən,
Sənin əsan, Sənin dəyənəyin mənə təsəlli verir.

Düşmənlərimin qarşısında mənim üçün süfrə açırsan,
Başıma ətirli yağ çəkirsən, ağzınadək camımı doldurursan.

Bəli, bütün həyatım boyu yaxşılıq, məhəbbət məni izləyir.
Bütün ömrüm boyu Rəbbin evində yaşayacağam!

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yez 33,11*

"Pis adamın ölümündən yox, onun öz yolundan dönüb yaşamasından zövq alıram" Xudavənd Rəbb bəyan edir.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Yəh 8, 1-11*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Lakin İsa Zeytun dağına getdi. Səhər tezdən yenə məbədə gəldi. Bütün xalq Onun yanına toplaşdı, O da oturub onlara təlim öyrətməyə başladı. İlahiyyatçılar və fariseylər zina üstündə tutulmuş bir qadını oraya gətirdilər. Onu ortaya çıxarıb İsaya dedilər: «Müəllim, bu qadın zina edərkən əməlində yaxalandı. Qanunda Musa bizə əmr edib ki, belələrini daşqalaq edək. Bəs Sən nə deyirsən?» Bunu İsanı sınamaq üçün deyirdilər, Onu ittiham etmək üçün bəhanə axtarırdılar. Amma İsa əyilib barmağı ilə yerə yazı yazmağa başladı. Ondan təkrar soruşduqları zaman dikəlib onlara dedi: «Sizdən kim günahsızdırsa, qadına birinci daş atsın». Sonra yenə əyilib yerə yazı yazdı. Bu sözləri eşidənlər başda ağsaqqallar olmaqla bir-bir oradan uzaqlaşdılar. İsanı tək qoydular, qadın da ortada idi. İsa dikəlib ona dedi: «Qadın, onlar hara getdilər? Bəs heç kim səni məhkum etmədi?» Qadın «heç kim, Ağa» dedi. Onda İsa dedi: «Mən də səni məhkum etmirəm, get, daha günah etmə»

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 5ci həftə | Çərşənbə axşamı 2ci gün

**Saylar kitabından sözlər** *Say 21, 4-9*

Xalq Hor dağını tərk edib Edom torpağının ətrafından keçmək üçün Qırmızı dəniz yolundan keçdi. Yolda onların səbri tükəndi. Onlar Allaha və Musaya qarşı deyinirdilər: «Nə üçün siz bizi Misirdən çıxardınız? Səhrada ölmək üçünmü? Axı burada nə çörək, nə də su var. Bu dadsız yeməkdən də iyrənirik».
O zaman Rəbb xalqın arasına zəhərli ilanlar göndərdi. İlanlar xalqı sancdı və İsrail övladlarından çox adam öldü. Xalq gəlib Musaya dedi: «Biz günah etdik, çünki Rəbbə və sənə qarşı deyindik. İndi isə ilanları bizdən uzaqlaşdırmaq üçün Rəbbə yalvar». Musa xalqı xilas etmək üçün Rəbbə yalvardı. Rəbb Musaya dedi: «Özünə bir ilan düzəlt və onu uzun dəyənəyin üzərinə qoy. İlan vuran adam ona baxdıqda sağalsın». Musa tuncdan bir ilan düzəltdi və dəyənəyin üzərinə qoydu, ilan vuran hər adam tunc ilana baxan kimi sağalırdı.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 102, 1-2. 15-17. 18-20**

**N:Ya Rəbb, bu duama qulaq as.**

Ya Rəbb, bu duama qulaq as, qoy fəryadım Sənə çatsın.
Nə olar, dar günümdə üzünü məndən gizlətmə,
Qulaq as, Səni çağırarkən mənə tez cavab ver.

Millətlər Rəbbin ismindən,
Dünyanın bütün padşahları Onun əzəmətindən qorxacaqlar.
Rəbb Sionu yenidən bərpa edəcək, əzəmətində görünəcək,
Yoxsulların duasına qulaq asacaq, yalvarışlarına xor baxmayacaq.

Sonrakı övladları Rəbbə həmd etsin deyə qoy gələcək nəsil üçün belə yazılsın:
«Rəbb müqəddəs yüksəklikdən, göylərdən yer üzünə nəzər saldı;
Əsirlərin naləsini eşitmək üçün, ölümə aparılanları azad etmək üçün

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**
Toxum Allahın kəlamıdır, toxumu səpən Bəşər Oğludur,
Onu tapan hər kəs əbədi yaşayacaq.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Yəh 8, 21-30*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

İsa yenə fariseylərə dedi: «Mən çıxıb gedirəm, siz Məni axtaracaqsınız və öz günahınız içində öləcəksiniz. Siz Mənim gedəcəyim yerə gələ bilməzsiniz». Onda Yəhudilər dedilər: «Məgər O Özünü öldürəcək ki, "siz Mənim gedəcəyim yerə gələ bilməzsiniz" deyir?» İsa onlara dedi: «Siz aşağıdansınız, Mən yuxarıdanam, siz bu dünyadansınız, Mənsə bu dünyadan deyiləm. Buna görə də sizə "günahlarınız içində öləcəksiniz" dedim. Əgər inanmasanız ki, Mən Oyam, günahlarınız içində öləcəksiniz». Onda «Sən Kimsən?» deyə İsadan soruşdular. İsa onlara dedi: «Əvvəlcədən sizə nə söyləyirəmsə, Oyam. Sizin barənizdə söyləyəcəyim və mühakimə edəcəyim çox şeylər var. Lakin Məni göndərən haqdır və Mən Ondan eşitdiklərimi dünyaya söyləyirəm». İsanın onlara Ata barədə danışdığını anlamadılar. Onda İsa dedi: «Bəşər Oğlunu yuxarı qaldırdığınız vaxt biləcəksiniz ki, Mən Oyam və Özümdən bir şey etmirəm, ancaq Ata Mənə necə öyrədibsə, o cür danışıram. Məni Göndərən Mənimlədir. O Məni tək qoymadı, çünki Mən daim Onun xoşuna gələnləri edirəm».
İsa bu sözləri söylədiyi zaman bir çox adam Ona iman etdi.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 5ci həftə | Çərşənbə 3ci gün

**Peyğəmbər Danielin kitabından sözlər** *Dan 3, 14-20. 91-92. 95*

Navuxodonosor onlara dedi: «Ey Şadrak, Meşak və Aved-Neqo, bu doğrudur ki, siz mənim allahlarıma qulluq etmirsiniz? Mənim qoyduğum qızıl heykələ səcdə etmirsiniz? Yaxşı olar ki, indi şeypur, zurna, lira, arfa, səntur, tuluq zurnası və hər cür musiqi alətlərinin səsini eşidən zaman yerə əyilib düzəltdiyim heykələ səcdə edəsiniz. Əgər səcdə etməsəniz, o saat odla qızmış sobaya atılacaqsınız. O zaman sizi hansı allah mənim əlimdən qurtara bilər?» Şadrak, Meşak və Aved-Neqo padşaha cavab verdi: «Ey Navuxodonosor, bizim bu iş üçün sənin önündə özümüzü müdafiə etməyimizə ehtiyac yoxdur. Ey padşah, əgər belə olsa, qulluq etdiyimiz Allahımız bizi odla qızmış sobadan xilas etməyə qadirdir və sənin də əlindən qurtaracaq. Sənə məlum olsun ki, ey padşah, əgər belə olmasa da, biz sənin allahlarına qulluq edən deyilik və sənin qoyduğun qızıl heykələ də səcdə etməyəcəyik».
O zaman Navuxodonosor bərk qəzəbləndi və Şadraka, Meşaka, Aved-Neqoya qarşı siması dəyişdi. O əmr etdi ki, sobanı adətən qızdırdıqlarından yeddi dəfə artıq qızdırsınlar. Ordusunun ən güclü əsgərlərinə əmr etdi ki, Şadrakın, Meşakın və Aved-Neqonun əl-qolunu bağlayıb onları odla qızmış sobaya atsınlar.

*... (91-92. 95)*

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur (Nəğmə) Dan 3, 52.53/55. 54/56 )**
**Nəqarat: Əbədi olaraq tariflənən və şərəflənənsən.**

Atalarımızın Allahı Rəbbimiz, Sən xeyir-dualısan,
Təriflənən və əbədi olaraq ucalan Sənsən.
Sənin izzətinin adı xeyir-dualıdır,
Müqəddəs və tərifəlayiqdir, Əbədi olaraq ucadır.

Müqəddəs izzətinin məbədində Sən xeyir-dualısan,
Təriflənən və əbədi olaraq ucalansan.
Dərinlikləri Görən, Keruvların üstündə Oturan,
Təriflənən və əbədi olaraq şərəflənən Sənsən.

Padşahlığının izzətli taxtında Sən xeyirdualısan,
Yüksələn və əbədi olaraq təriflənənsən.
Göy qübbəsində Sən xeyir-dualısan,
Əbədi olaraq təriflənən və şərəflənənsən.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Lk 8,15*
Kəlamı eşidib xeyirxah və sadiq ürəkdə saxlayanlar nə bəxtiyardır!
Bunlar səbirlə səmərə verir.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Yəh 8, 31-42*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

O zaman İsa Ona inanmış Yəhudilərə dedi: «Əgər siz Mənim sözümə sadiq qalsanız, həqiqətən, Mənim şagirdlərimsiniz. Onda siz həqiqəti biləcəksiniz və həqiqət sizi azad edəcək». Yəhudilər İsaya cavab verdilər: «Biz İbrahimin nəslindənik, heç kəsə heç vaxt kölə olmamışıq. Bəs Sən niyə "azad olacaqsınız" deyirsən?» İsa onlara dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm: günah edən hər kəs günahın köləsidir. Kölə evdə daim qalmaz, oğulsa daim qalar. Buna görə də əgər Oğul sizi azad etsə, həqiqətən də, azad olacaqsınız. İbrahimin nəslindən olduğunuzu bilirəm, ancaq bununla belə, Məni öldürməyə çalışırsınız. Çünki Mənim sözüm sizin ürəyinizdə yer tapmır. Mən Atanın yanında gördüklərimi söyləyirəm, sizsə öz atanızdan eşitdiklərinizi yerinə yetirirsiniz». Onlar İsanın cavabında «bizim atamız İbrahimdir» dedilər. İsa onlara dedi: «İbrahimin övladları olsaydınız, İbrahimin etdiyi əməlləri edərdiniz. Sizsə indi Məni – Allahdan eşitdiyi həqiqəti sizə söyləyən Adamı öldürməyə çalışırsınız. İbrahim belə etmədi. Siz öz atanızın əməllərini edirsiniz». Ona dedilər: «Biz zinadan doğulmamışıq, bizim bir Atamız var, O da Allahdır». İsa onlara dedi: «Əgər Allah sizin Atanız olsaydı, Məni sevərdiniz, çünki Mən Allahdan çıxıb gəlmişəm və indi buradayam. Mən Özümdən gəlmədim, lakin O Məni göndərdi.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 5ci həftə | Cümə axşamı 4cü gün

**Yaradılış kitabından sözlər** *Yar 17, 3-9*

İbram üzüstə düşdü. Allah onunla danışıb dedi: «Mən səninlə əhd bağlamışam, sən çoxlu millətin atası olacaqsan. Daha sənə İbram deyilməyəcək, bu gündən adın İbrahim olacaq, çünki səni çoxlu millətin atası etdim. Nəslini lap çoxaldacağam, səndən millətlər törədəcəyəm və nəslindən padşahlar çıxacaq. Özümlə sənin və səndən sonrakı nəslinin arasında əbədi əhd qoyuram ki, Mən sənin və səndən sonrakı nəslinin Allahı olacağam. Sənə və səndən sonrakı nəslinə qərib kimi yaşadığın bu torpağı – bütün Kənan torpağını əbədi mülk olaraq verəcəyəm və onların Allahı olacağam». Sonra Allah İbrahimə dedi: «Sən və səndən sonrakı övladların nəsillər boyu əhdimə əməl edin.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 105, 4-5. 6-7.8-9**

**N: Rəbb müqəddəs əhdini əbədi xatırlayar.**

Rəbbi, Onun qüvvətini arayın, daim hüzurunu axtarın.
Etdiyi xariqələri, möcüzələri, dilindən çıxan hökmləri xatırlayın,

Ey Onun qulu İbrahim nəsli, ey Yaqub övladları, ey Onun seçdikləri!
Allahımız Rəbb Odur, hökmü bütün yer üzündədir.

Əbədi olaraq min nəslə qədər əhdini, əmr etdiyi sözü,
İbrahimlə kəsdiyi əhdini, İshaqa and içərək verdiyi vədini unutmaz.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Zəb 95, 8*

Qoy ürəkləriniz inadkar olmasın. Rəbbin səsini eşidin.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Yəh 8, 51-59*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**

K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *

**M: Şan-şərəf Rəbbindir.**

Doğrusunu, doğrusunu sizə deyirəm: kim Mənim sözümə riayət edərsə, heç vaxt ölüm görməyəcək». Yəhudilər Ona dedilər: «İndi bildik ki, Səndə cin var. İbrahim də öldü, peyğəmbərlər də. Amma Sən "kim Mənim sözümə riayət edərsə, heç vaxt ölməyəcək" deyirsən. Yoxsa Sən atamız İbrahimdən də üstünsən? O da öldü, peyğəmbərlər də. Axı Sən Özünü kim sayırsan?» İsa cavab verdi: «Əgər Mən Özümü izzətləndirirəmsə, Mənim izzətim heçdir, amma Məni izzətləndirən Atamdır. Siz Onun barəsində "Allahımızdır" deyirsiniz, lakin Onu tanımırsınız. Mənsə Onu tanıyıram. Əgər "Onu tanımıram" desəydim, sizin kimi yalançı olardım. Lakin Mən Onu tanıyıram və sözünə riayət edirəm. Atanız İbrahim Mənim günümü görəcəyi üçün şad oldu, görüb sevindi». Buna görə Yəhudilər Ona dedilər: «Sənin heç əlli yaşın yoxdur, İbrahimi necə görmüsən?» İsa onlara dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm: İbrahim olmazdan qabaq Var Olan Mənəm». O zaman İsanı daşqalaq etmək üçün yerdən daş götürdülər, ancaq İsa gizləndi və məbəddən çıxdı.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 5ci həftə | Cümə 5ci gün

**Peyğəmbər Yeremyanın kitabından sözlər** *Yer 20, 10-13*

Çünki çoxlarının «Hər tərəfdə dəhşət! Onu mühakimə edin, biz də onu mühakimə edək!» Deyə pıçıldaşdığını eşitdim. Bütün güvəndiyim adamlar büdrəməyimi gözləyərək «Bəlkə aldanar, onda onu məğlub edərik, ondan qisasımızı alarıq» dedilər. Ancaq Rəbb igid bir döyüşçü kimi mənimlədir. Buna görə də məni təqib edənlər büdrəyəcək, Qalib gələ bilməyəcək. Uğur qazana bilmədikləri üçün Böyük xəcalət çəkəcəklər. Rüsvayçılıq əbədi olacaq, Heç vaxt unudulmayacaq.
Ancaq, ey Ordular Rəbbi, Sən salehi sınağa çəkirsən,
Fikri və ürəyi görürsən. Qoy gözüm Sənin onlardan alacağın qisası görsün!
Çünki işimi Sənə tapşırdım. Rəbbi tərənnüm edin, Rəbbə həmd edin!
Çünki fəqiri zalımların əlindən qurtardı.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 18, 1-2a. 2bc-3. 4-5. 6.**

**N: Rəbbə yalvardım, O, mənim qayamdır**

O belə oxudu: Ey mənə qüvvət verən Rəbb, Səni sevirəm.
Rəbb qayam, qalam, xilaskarımdır,

Allahım qayamdır, Ona pənah gətirəcəyəm,
Odur qalxanım, qüdrətli qurtarıcım, qülləm.
Həmdə layiq Rəbbi çağıracağam, düşmənlərimin əlindən qurtulacağam.

**N: Rəbbə yalvardım, O, mənim qayamdır**

Ətrafımı ölüm ipləri bürümüşdü, məni əcəl selləri ürkütmüşdü.
Ölülər diyarının ipləri mənə sarılmışdı, ölüm kəməndləri məni qarşılamışdı.

Əzab içində Rəbbə yalvardım, Allahıma fəryad qopardım.
O, məbədindən səsimi eşitdi, fəryadımsa hüzuruna, Onun qulağına yetdi.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yəh 6, 63b. 68b*
Sizə söylədiyim sözlər Ruh və həyat gətirir.
Əbədi həyatın sözlərini söyləyən Sənsən.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Yəh 10, 31-42*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Yəhudilər yenə yerdən daş götürdülər ki, Onu daşqalaq etsinlər. İsa onlara dedi: «Sizə Atadan gələn çoxlu yaxşı iş göstərdim. Siz bunların hansına görə Məni daşqalaq etmək istəyirsiniz?» Yəhudilər Ona cavab verdilər: «Səni yaxşı işinə görə deyil, insan olduğun halda Özünü Allah sayaraq küfr etdiyinə görə daşqalaq edirik». İsa onlara dedi: «Məgər sizin öz Qanununuzda yazılmayıb ki, "demişəm: ‹Siz allahlarsınız›"? Allah Öz kəlamını göndərdiyi adamlara "allahlarsınız" deyir. Müqəddəs Yazı ki pozula bilməz. Bəs siz niyə "Allahın Oğluyam" dediyim üçün Mənə – Atanın təqdis edib dünyaya göndərdiyi Şəxsə "küfr edirsən" deyirsiniz? Əgər Atamın işlərini görmürəmsə, Mənə inanmayın. Amma bu işləri görürəmsə, Mənə inanmasanız da, bunlara inanın. Onda Atanın Məndə, Mənim də Atada olduğumu anlayıb bilərsiniz». Onlar yenə İsanı tutmağa çalışdı, amma O, əllərindən sıyrılıb çıxdı. İsa yenə İordanın o biri sahilinə, Yəhyanın əvvəllər vəftiz etdiyi yerə getdi və orada qaldı. Çoxlu adam Onun yanına gəlib dedi: «Yəhya heç bir əlamət göstərməsə də, onun bu Adam barədə dediyi bütün sözlər doğru çıxdı». Bir çox adam da orada İsaya iman etdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC | 5ci həftə | Şənbə 6cı gün

**Peyğəmbər Yezekelin kitabından sözlər** *Yez 37, 21-28*

Sonra onlara söylə ki, Xudavənd Rəbb belə deyir: İsrail övladlarını yanlarına getdikləri millətlərin arasından götürəcək, onları hər yerdən toplayıb öz torpaqlarına qaytaracağam. Onları ölkədə, İsrail dağları üzərində vahid bir millət edəcəyəm. Hamısının vahid padşahı olacaq. Daha iki ayrı millət olmayacaq, iki padşahlığa bölünməyəcəklər. Artıq bütləri, iyrənc şeyləri və üsyanları ilə özlərini murdar etməyəcəklər. Onları yaşadıqları və içində günah etdikləri yerlərdən qurtarıb pak edəcəyəm. Onlar Mənim xalqım, Mən də onların Allahı olacağam.
Qulum Davud onların padşahı olacaq, onların hamısına vahid çoban olacaq. Onlar Mənim hökmlərimə görə rəftar edəcək, qaydalarımı saxlayıb yerinə yetirəcək.Qulum Yaquba verdiyim, atalarının yaşadıqları ölkədə yaşayacaqlar, özləri, oğulları və nəvələri əbədi olaraq orada yaşayacaq. Qulum Davud da əbədi olaraq onların rəhbəri olacaq. Mən onlarla sülh əhdi bağlayacağam. Bu onlarla əbədi bir əhd olacaq. Onları orada yerləşdirəcək və saylarını çoxaldacağam. Müqəddəs məkanımı əbədi olaraq onların arasında quracağam. Mənim məskənim onların arasında olacaq. Mən onların Allahı, onlar da Mənim xalqım olacaq. Müqəddəs məkanım əbədi olaraq onların arasında yerləşəndə millətlər biləcək ki, İsraili təqdis edən Mən Rəbbəm"».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur (Nəğmə) - Yer 31, 10. 11-12ab. 13**

**N: Sürüsünü qoruyan çoban kimi Rəbb bizi qoruyacaq.**

Ey millətlər, Rəbbin sözünü eşidin, uzaqlardakı adalarda elan edib deyin:
İsraili səpələyən onu bir yerə toplayacaq,
Sürüsünü qoruyan çoban kimi Onu qoruyacaq".

Çünki Rəbb Yaqubu satın aldı, ondan güclü olanın əlindən qurtardı.
Onlar Sionun yüksək təpəsinə gəlib tərənnüm edəcək.

O zaman bakirə qız, cavan və qoca kişilər birlikdə rəqs edib sevinəcək,
Mən onların yasını şadlığa çevirəcəyəm, sevincə çevirəcəyəm.
Kədərlərinə təsəlli verib onları sevindirəcəyəm.

**Ey Allahın Kəlamı, Sənə həmd olsun!** *Yez 18,31*
Etdiyiniz günahların hamısını üstünüzdən götürün,
özünüzdə yeni ürək və yeni ruh yaradın.
**Ey Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Yəh 11, 45-57*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Onda Məryəmin yanına gələn və İsanın nə etdiyini görən Yəhudilərin bir çoxu Ona iman etdi. Lakin onlardan bəzisi fariseylərin yanına gedib İsanın nə etdiyini onlara danışdı.
Onda başçı kahinlər və fariseylər Ali Şuranı toplayıb dedilər: «Nə edək? Bu Adam çoxlu əlamət göstərir. Əgər Ona mane olmasaq, hamı Ona iman edəcək. Romalılar da gəlib məbədimizi və millətimizi məhv edəcək». Orada olanlardan biri, həmin il baş kahin olan Qayafa onlara dedi: «Siz heç nə bilmirsiniz. Başa düşmürsünüz ki, bütün bu millətin məhv olmağındansa bir Adamın xalq uğrunda ölməsi sizin üçün daha yaxşıdır?» O bu sözləri özündən söyləmədi, lakin o il baş kahin olduğu üçün peyğəmbərlik edib xəbər verdi ki, İsa bu millətin uğrunda – təkcə millətin uğrunda deyil, Allahın hər tərəfə səpələnmiş övladlarını bir yerə toplamaq üçün öləcək. Beləcə o gündən etibarən İsanı öldürməyi qərara aldılar. Buna görə də İsa daha Yəhudilərin arasında açıq gəzmirdi. Oradan çöllüyə yaxın diyara, Efrayim adlanan şəhərə getdi və şagirdlərlə orada qaldı.
Yəhudilərin Pasxa bayramı yaxınlaşırdı. Çoxlu adam paklanmaq üçün Pasxadan qabaq kəndlərdən Yerusəlimə getdi. Onlar İsanı axtarırdılar və məbəddə dayanıb bir-birlərinə deyirdilər: «Necə fikirləşirsiniz? O, bayrama heç gəlməyəcəkmi?» Başçı kahinlər və fariseylər Onu tutmaq məqsədi ilə «harada olduğunu kim bilirsə, göstərsin» deyə əmr vermişdilər.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**